Xalqın qəzeti!

# Xalq qəzeti

№ 178 (30294) 22 avqust 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Qarabağda hakimiyyəti ələ keçirmiş xunta və özlərini gah "prezident", gah "nazirlər", gah da "deputatlar" adlandıranlar artıq hər kəsdə gülüş doğurur. İndi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır.**

# Avropaya nümunə olan dostluq və tərəfdaşlıq

## Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

### Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında qarşılanma



**Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfərə gəlib.**

Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Macarıstanın ədliyyə naziri Bentze Tujon və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

### Prezident İlham Əliyevin Baş nazir Viktor Orban ilə görüşü



**Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olub.**

Görüşdə Macarıstanın Baş naziri Viktor Orban ölkəsinə səfərə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Macarıstanın Milli günü münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı bu ilin yanvarında Macarıstana səfərini və səfər zamanı aparılmış səmərəli və əhatəli müzakirələrin vacibliyini vurğuladı, əldə edilmiş razılaşmaların uğurla həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

(ardı 2-ci səhifədə)

## Azərbaycan–Macarıstan: qədim tarixə bağlı dostluq



**Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycana əsl dostlarının kim olduğunu göstərdi. Axı müharibə dinc dövrdən fərqli olaraq həm də sınaq anıdır. O çətin günlərin sınağından üzüağ çıxaraq Azərbaycanın yanında duran ölkələrdən biri də Macarıstandır.**

2021-ci il martın 10-da cənab İlham Əliyevin Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edərkən dediyi sözlər iki ölkə arasındakı səmimi dostluq münasibətlərini dəqiq xarakterizə edir: "Əminəm ki, Macarıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq".

Avqustun 20-də Budapeştdə Macarıstanın Milli bayramı – Müqəddəs Stefan Günü münasibətilə silsilə tədbirlər keçirildi, yüksək qonaqların şərəfinə ziyafət verildi. Həmin tədbirlərdə Avropa və Asiyanın bir çox ölkələrindən dövlət və hökumət başçıları, siyasətçilər və biznesmenlər iştirak edirdilər.

(ardı 3-cü səhifədə)

## Azərbaycan–Özbəkistan dostluq və qardaşlıq münasibətləri müstəqillik illərində



Səhifə ⇨ 5

## Arutyunyan–Vardanyan qarşıdurması açıq müstəviyə keçib



**Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti altında olan hissəsində yaşayan ermənilərin separatçı rejiminin tör-töküntüsünün başçısı Arayik Arutyunyanla sabiq "dövlət naziri" Ruben Vardanyan arasındakı qarşıdurma açıq müstəviyə keçib. R.Vardanyanın bugünlərdə yaydığı videomüraciət belə deməyə əsas verir. On bir dəqiqəlik müraciət "YouTube" videohostinqinə "Sən nə rəhbər, nə də baş komandan ola bildin" sərlövhəsi ilə yerləşdirilib.**

Vardanyan həmin videoda Arutyunyanı kəskin tənqid edib. Qeyd edib ki, Arutyunyanın dediyi heç bir sözün dəyəri qalmayıb: "Mən səmimi sözlərimi bu vəziyyətə görə məsuliyyət daşıyan şəxsə ünvanlamaq istəyirəm. Bu, hazırkı "prezident" Arayik Arutyunyandır. Altı ay əvvəl vəzifədən gedəndə (qondarma rejimin "dövlət naziri" vəzifəsini nəzərdə tutur – S.H.) dedim ki, əgər "prezident" həqiqətən mübarizə aparmağa, "Artsax"-da və ondan kənarda – Ermənistanda və diasporda olan soydaşlarımızın lideri və baş komandanı olmağa hazırdırsa, biz hamımız onun yanında olmalıyıq. Hər şeyi etməliyik ki, o, həqiqətən, bizi irəli aparsın və biz bütün çətinliklərin öhdəsindən gələk.

(ardı 4-cü səhifədə)

## Avtomobil nəqliyyatında yeniliklər

Səhifə ⇨ 7



## Türkiyə–Macarıstan: xüsusi münasibətlər



Səhifə ⇨ 10

## Dünya çempionatının iştirakçıları: "Azərbaycan əsl nümunədir"

Səhifə ⇨ 11

# Prezident İlham Əliyevin Baş nazir Viktor Orban ilə görüşü



**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev Macarıstanın Baş nazirini Azərbaycana səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

Görüş əsnasında Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən, neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulandı. Qida sənayesi sahəsində Macarıstanın Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamika qeyd edildi, Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı-Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunuldu, ümumilikdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlaması müsbət addım kimi qiymətləndirildi və bu istiqamətdə daha böyük imkanların olduğu vurğulandı. Elm-təhsil sahəsində əməkdaşlıq qeyd edildi, xüsusilə Macarıstanda azərbaycanlı tələbələrə ali təhsil üzrə təqaüdlərin verilməsi təqdir olundu, gələcəkdə peşə təhsili sahəsində də əməkdaşlıq məsələləri xüsusi vurğulandı.

Söhbət zamanı, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Sazişin imzalanmasının və Qara dənizin dibi ilə elektrik xəttinin çəkilməsi layihəsinin həyata keçirilməsi istiqamətində səylərin davam etdirilməsinin önəmi qeyd olundu, Orta Dəhlizin əhəmiyyəti və yükdaşımaların artması vurğulandı.

Görüşdə ölkələrimizin Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi.

***AZƏRTAC***

# İlham Əliyevin Jelka Tsviyanoviç və Milorad Dodik ilə görüşü



**Avqustun 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.**

Görüşdə Prezident İlham Əliyevin bu ilin aprelində Bosniya və Herseqovinaya rəsmi səfəri və səfər zamanı aparılmış müzakirələrin önəmi vurğulandı, həmin səfər çərçivəsində Azərbaycan ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanmasının önəmi qeyd edildi.

Bəyannamədə qarşıya qoyulan vəzifələrin hazırda həyata keçirilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı münasibətlərimizin hərtərəfli inkişafından məmnunluq ifadə olundu, iqtisadi-ticari əlaqələrin və energetika sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edildi. Xüsusilə enerji sahəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin aidiyyəti nazirlikləri və təşkilatları arasında bu sahədə görüşlərin keçirildiyi bildirildi, qarşıya qoyulan iqtisadi və investisiya layihələrinin reallaşdırılması üzrə müzakirələrin aparıldığı qeyd olundu.

***AZƏRTAC***

# Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindəki bəzi qurumlarda cari təmir işləri üçün vəsait ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindəki bəzi qurumlarda cari təmir (havalandırma, soyutma, isitmə, nəmalma və yanğın təhlükəsizliyi sistemləri üzrə avadanlıq alınması və quraşdırılması, habelə dam örtüyünün təmiri) işləri üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 5.424,0 min (beş milyon dörd yüz iyirmi dörd min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində göstərilən cari təmir işlərinin başa çatdırılması üçün tələb olunan vəsaitin Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində nəzərdə tutulmasını təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 avqust 2023-cü il**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva final yarışını izləyiblər





**Avqustun 20-də Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalı keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə finalı izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç də yarışa baxıblar.

Atletika üzrə dünya çempionatı ilk dəfədir Budapeştdə keçirilir. Macarıstanın ev sahibliyi etdiyi ən böyük idman yarışı olan atletika üzrə dünya çempionatı avqustun 19-da start götürüb. Avqustun 27-dək davam edəcək bu mötəbər turnirdə 200-dən çox ölkədən 2000-dən artıq idmançı atletikanın 49 növü üzrə mübarizə aparır. Azərbaycanı dünya çempionatında iki idmançı təmsil edir.

***AZƏRTAC***

# Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Budapeştdə ziyafətdə iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Budapeştdə Macarıstanın Milli bayramı – Müqəddəs Stefan Günü münasibətilə verilən ziyafətdə iştirak ediblər.**

***AZƏRTAC***





# Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri avqustun 21-də başa çatıb.**

*AZƏRTAC*

# Paraqvay Respublikasının Prezidenti Zati-aliləri cənab Santyaqo Penyaya

**Hörmətli cənab Prezident,**

Paraqvay Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Paraqvay arasındakı dostluq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli qaydada uğurla davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 21 avqust 2023-cü il**

# Azərbaycan–Macarıstan: qədim tarixə bağlı dostluq

## *Özlərini Şərqi Avropada Atillanın yadigarları sayan macarların Azərbaycanla çoxtərəfli əməkdaşlığı yüksələn xətlə inkişaf edir*



**(əvvəli 1-ci səhifədə)**

Bu münasibətlə Budapeştdə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Budapeştdə bayram tədbirinə qatılıblar. Həmin gün Prezident İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olub. Görüşdə Baş nazir ölkəsinə səfərə dəvəti qəbul etdiyinə görə İlham Əliyevə minnətdarlığını bildirib. Dövlətimizin başçısı, öz növbəsində, V.Orbana Macarıstanın Milli bayramı münasibətilə təbriklərini çatdırıb və onu Azərbaycana səfərə dəvət edib.

Görüş əsnasında iki ölkə arasında enerji, o cümlədən, neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulanıb. Eləcə də qida sənayesi sahəsində Macarıstanın Azərbaycana sərmayə qoyması, əczaçılıq sahəsində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamika qeyd edilib. Söhbət zamanı, həmçinin Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı–Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunulub, ümumilikdə, ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Macarıstanın Milli bayramı münasibətilə Tatarıstanın başçısı Rustam Minnixanovun, Qətər əmiri Təmim bin Həməd Al Saninin Budapeştə gəlməsi, ümumiyyətlə, bayram tədbirlərinə qatılan ölkələrin coğrafiyası onu göstərir ki, Macarıstan Şərqi Avropada üstün mövqelərə çıxan ölkə statusunu qazanıb.

### Əməkdaşlıqda etibarlı, dostluqda sədaqətli

Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan–Macarıstan münasibətləri dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Macarıstan Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən olub və iki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin əvvəlindən qurulub.

Həm müharibəyəqədərki, həm də postmüharibə dövründə Azərbaycan Macarıstanla Türk Dövlətləri Təşkilatı (TDT) və digər beynəlxalq platformalarda uğurla əməkdaşlıq edir. 2018-ci ildən TDT-də müşahidəçi statusuna malik, təşkilatla əlaqələrinin inkişafına böyük əhəmiyyət verən rəsmi Budapeşt milli bayrağının məhz türkdilli dövlətlərin bayraqlarının yanında dalğalanmasını istədiyini gizlətmir. Macarıstan paytaxtında qurumun nümayəndəliyi fəaliyyət göstərir.

Bir maraqlı məqamı da xatırlatmağımız yerinə düşər. Baş nazir Viktor Orban 2018-ci ildə verdiyi bəyanatında bildirmişdi ki, macarlar özlərini Hun hökmdarı Atillanın nəslindən hesab edirlər və macar xalqı hun-türk köklərinə əsaslanır. Təsadüfi deyil ki, 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (o vaxt TDT belə adlanırdı – red.) VII Zirvə görüşünə Macarıstanın Baş Naziri Viktor Orban da qatılmışdı. Baş nazir çıxışında ölkəsinin Türk dövlətləri ilə həmrəy olduğunu açıq şəkildə nümayiş etdirdi.

Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi istər ikitərəfli əməkdaşlıq çərçivəsində, istərsə də təmsil olunduqları beynəlxalq təşkilatlarda daim bir-birinə qarşılıqlı dəstək verirlər. Yeri gəlmişkən, Azərbaycan və Macarıstan arasındakı çoxspektrli sıx əlaqələr Avrasiya qitəsi üçün də böyük əhəmiyyət daşıyır.

Qarabağ münaqişəsində haqqın, ədalətin tərəfdarı kimi çıxış edən Macarıstan Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib. Yuxarıda qeyd etdiyimiz kimi, işğaldan azad olunmuş Qarabağ torpaqlarında aparılan bərpa-quruculuq işlərində yaxından iştirak edən Budapeşt, eyni zamanda, minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə ölkəmizə 25 min avro ianə ayırıb. Onu da qeyd edək ki, iki ölkə arasında əlaqələrin daha da gücləndirilməsi üçün işlər sistemli şəkildə aparılır.

### Strateji tərəfdaşlığa keçid

İki ölkə arasında strateji əməkdaşlığa təkanverici amil İlham Əliyevin dövlət başçısı kimi bu ilin yanvar ayında Macarıstana rəsmi səfəri oldu. Həmin səfər qarşılıqlı maraq doğuran bir sıra sahələr üzrə əməkdaşlığı yeni mərhələyə daşımağa xidmət edirdi. Səfər zamanı Azərbaycanın dövlət başçısı və Macarıstanın Baş nazirinin imzaladıqları sənədlər arasında ən mühümü iki ölkə arasında Strateji tərəfdaşlığın möhkəmləndirilməsi barədə Birgə Bəyannamə oldu. İqtisadi sahəni də əhatə edən həmin bəyannamə, eləcə də digər sənədlər əməkdaşlığın daha da genişləndirilməsi üçün baza rolunu oynayır. Budapeşt Bakı ilə enerji sahəsində də əməkdaşlığa böyük önəm verir və Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın oynadığı rolu yüksək qiymətləndirir. Dost ölkənin Orta dəhliz layihəsini də dəstəkləməsini, ona qoşulmaq niyyətini bildirməsini ayrıca qeyd etmək lazımdır.

Əldə olunmuş razılığa əsasən, Azərbaycan qazı interkonnektorlar vasitəsilə Bolqarıstana, oradan Rumıniyaya, ondan sonra Macarıstana, daha sonra digər Avropa ölkələrinə çatdırılacaq. 2023-cü ilin dördüncü rübündə Macarıstan Azərbaycandan 100 milyon kubmetr qaz almalıdır. Bununla bağlı Macarıstanın MVM CEEnergy şirkəti ilə Azərbaycanın SOCAR neft-qaz şirkəti arasında 2023-cü ilin sonuna qədər Macarıstana ildə 2 milyard kubmetrə qədər mümkün artımla 100 milyon kubmetr qaz tədarük edilməsi barədə saziş imzalanıb. Budapeşt uzun müddətdir ki, Azərbaycanla əməkdaşlığı inkişaf etdirir və enerji daşıyıcıları ilə bağlı imzalanan saziş qaz tədarükünün daha da artırılmasına, onun həcminin bir milyard kubmetrə çatdırılmasına imkan verəcək. Bundan başqa, Macarıstanın daxili rezervuarlarında 50 miyon kubmetr Azərbaycan qazının saxlanmasına dair razılıq əldə edilib.

Bəli, Azərbaycan və Macarıstan TDT-də, eləcə də digər nüfuzlu beynəlxalq təşkilarlarda uğurlu əməkdaşlıq ənənəsinə malikdir. TDT-də müşahidəçi ofisinə malik Budapeşt türkdilli ölkələrlə münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Macarıstanla əməkdaşlıq Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində xüsusi yer tutur. Son iyirmi ildə Bakı və Budapeşt arasında ikitərəfli əlaqələrin dinamikasına diqqət yetirsək görərik ki, bu əlaqələr yalnız yüksələn xətt üzrə gedir. Macarıstan Azərbaycanın strateji tərəfdaşı, Avropa İttifaqında ən etibarlı müttəfiqlərindən biridir. İki ölkə arasında əməkdaşlıq TDT ilə yanaşı, çoxtərəfli platformalarda, o cümlədən BMT, ATƏT, NATO, Şərq Tərəfdaşlığı kimi təşkilatlarda inkişaf etməkdədir.

### Böyük Turan Qurultayının ev sahibi

Bu gün Macarıstanda xeyli sayda azərbaycanlı yaşayır. Dost və qardaş ölkənin universitetlərinə üz tutan gənclərimizin sayı ilbəil artmaqdadır. Onu da qeyd etməliyik ki, təhsil sahəsində əməkdaşlığın səmərəsi hiss olunmaqdadır və müsbət nəticələr var. Hazırda 200 azərbaycanlı gənc Macarıstan hökumətinin dəstəyi ilə (tələbə təqaüdləri) bu ölkədə təhsil alır. Aydın məsələdir ki, bu fakt respublikamızda çağdaş tələblərə cavab verən kadr potensialının yaradılması istiqamətində çox önəmli hadisədir. Buna qarşılıq olaraq Azərbaycan Universitetində Macar dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir.

Macarlar özlərinin soykökünə sadiq, əcdadları ilə qürur duyan xalqdır. Avropanın ortasında qərar tutmalarına baxmayaraq dillərini yad təsirlərdən hifz etməyi bacarıblar. Macarlar hunların nəslindən, Atillanın nəvələri olduqlarına inanırlar. Deylənlərə görə, böyük Türk ailəsinin Qərbdə məskən salmış bir qolu hesab olunan macarların əcdadları Orta Asiyadan, Güney Uraldan və Qafqazdan gələndir.

İyirminci əsrdə 45 il "sosialist düşərgəsi"ndə qalmalarına rəğmən, heç vaxt keçmişini, soykökünü unutmayan macarların tarixlərinə sayğı və sadiqliklərinin bir örnəyi də Dünya Hun-Türk Qurultayının məhz Macarıstanda keçirilməsidir. 2008-ci ildən etibarən iki ildən bir təşkil olunan, həm də Böyük Turan Qurultayı adlanan tədbir açıq havada düzənlənir. Bu möhtəşəm yarışa dünyanın müxtəlif yerlərindən türkdilli xalqların nümayəndələri təşrif buyurur və özlərinə məxsus milli adət-ənələri nümayiş etdirirlər. Sonda qədim türk tayfalarına məxsus atüstü yarışlarda güclərini sınayırlar. Amma, həmin yarışların axırında qalib-məğlub olmur. Hamı – süvarilər də, piyadalar da yan-yana düzülüb, çiyin-çiyinə dayanıb Atillasayağı hayqırırlar. Böyüməkdə və bütövləşməkdə olan Türk dünyasının səsini Avropaya, eləcə də bütün dünyaya duyurmaqdan ötrü qələbəni bərabər bayram edirlər.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Hindistan nədən qorxur ki, Ermənistana silah yardımı edir?

## *Böyük Britaniyanın keçmiş SSRİ üzrə siyasi ekspertinin yazdıqları*

**Hindistan və Pakistan arasındakı rəqabət Kəşmir münaqişəsi ilə bağlıdır. Bu ölkələr Ermənistana və Azərbaycana silah verməklə, öz strateji maraqlarını qoruduqlarına inanırlar. Onları etdiklərinin Qarabağ münaqişəsinin dərinləşməsinə səbəb olduğu az maraqlandırır. Siyasi ekspert Sven Petersenin "Eurasianet"dəki məqaləsində bununla bağlı fikirlər əksini tapıb.**

Ekspert Qarabağ məsələsini Kəşmir münaqişəsinin davamı kimi xarakterizə edib. Onun fikrincə, Pakistan və Hindistan döyüşən tərəfləri–Ermənistanı və Azərbaycanı silahla təmin etməklə, özləri arasındakı rəqabət plasdarmında təmsilçilik həyata keçirirlər. Eyni zamanda, müəllif rəsmi İslamabadın uzun müddət Azərbaycanın tərəfində olduğu halda, İrəvanın İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra Hindistanın Ermənistanın silah tədarükçüsünə çevrildiyini vurğulayıb məsələyə Ermənistanın əlinin Rusiyadan üzüldüyündən Hindistana pənah apardığını düşünməsi prizmasından yanaşması mübahisələndirilə bilər.

S.Petersen yazısının davamında Hindistanın Qarabağ münaqişəsinə müdaxilə qərarını iki amillə əsaslandırır – strateji və iqtisadi. Yazır ki, Azərbaycanın 2020-ci ildəki Qələbəsi Yeni Dehlidə həyəcan yaradıb. Ölkə türk-müsəlman təsirindən qorxur. Ona görə də yenidən regional gücə çevrilə biləcəyinə ümid bəslədiyi Ermənistanla əməkdaşlığı intensivləşdirməyi zəruri sayır. Ümumən Hindistan yerli əhəmiyyətli münaqişələrdə qeyri-müsəlman tərəfin yanında olur. Ölkənin qorxduğu bir məsələ də var–Azərbaycanın Qarabağdakı strateji məqsədlərinə çatdıqdan sonra Ankara–Bakı–İslamabad qrupunun səylərini Kəşmirə yönəltməsi.



S.Petersen, həmçinin Pakistanın Azərbaycana dəstəyində Türkiyə amilini də önə çəkib. Bildirib ki, İslamabadın Bakının əsas dəstəkçisi olan Ankara ilə əlaqələri sıxdır. Müəllif mövcud xüsusda Pakistan hökumətinin 1991-ci ildə SSRİ-nin dağılmasından sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət olmasına diqqət çəkib. Onun diqqət çəkdiyi başlıca məqamlardan biri isə İslamabadın Ermənistanın müstəqilliyini hələ də tanımamasıdır.

Pakistan və Azərbaycan hərbçilərinin 2016-cı ildən birgə təlimlər keçirdiklərindən, geniş strateji təhlükəsizlik təmaslarını saxladıqlarından söz açan müəllif bəzi digər müşahidəçilərin də fikirlərinə istinad edib və İslamabadın Bakıya özünün Çinlə birgə istehsalı olan "JF-17" qırıcılarını sata biləcəyinə toxunub. S.Peterson bununla yanaşı, Hindistanın 2022-ci ilin payızında Ermənistana 245 milyon dollar dəyərində artilleriya sistemləri, tank əleyhinə raketlər və döyüş sursatları verdiyini yada salıb. O, eyni zamanda, bu ilin mayında İrəvanın Yeni Dehlidəki səfirliyinə hərbi attaşe təyin etməsinin üzərində dayanıb və bildirib ki, bu tədbir ikitərəfli hərbi əməkdaşlığın dərinləşdirilməsi məqsədini daşımaqdadır.

Müəllifin fikrincə, Hindistanın Ermənistana dəstəyini artırması ikinci üçün həlledici ola bilər. İrəvanın Bakının Qarabağdakı strateji təzyiqinə qarşı durmağa çalışdığını vurğulayan Petersen Ermənistanın ənənəvi strateji tərəfdaşı olan Rusiyanın Ukraynada bataqlığa düşdüyü və indi Qarabağ nizamlanmasında böyük rol oynamağa resurslarının və iradəsinin çatmadığı fikrindədir. İrəvan isə ümid bəsləyir ki, Hindistan Azərbaycanın Türkiyə, Pakistan və İsraildən aldığı dəstəyi kompensasiya etməkdə ona kömək göstərəcək. Əlbəttə, müəllifin

Digər tərəfdən, müəllif bu qənaətdədir ki, Hindistanın Qarabağ münaqişəsində iştirakı izahını həm də Türkiyə və Azərbaycanın Xəzər hövzəsində təsirini azaltmaq istəyində tapa bilər. Habelə, Ermənistanla güclü əlaqələr Yeni Dehlinin İranla əməkdaşlığına töhfə verir. Eyni zamanda, Hindistan Ermənistanın silah tədarükçüsünə çevrilməklə, Rusiyanın vaxtilə malik olduğu statusa sahiblənmək, iqtisadi qazanc əldə etmək istəyir. Bununla belə, Petersenin yazdığına görə, Hindistanın özü də Rusiya silahlarının əsas idxalçısıdır. İkincinin isə hərbi texnikasının, təxminən, dörddə üçü Ukraynadakı müharibəyə yönəlib və bu səbəbdən ixrac sifarişlərini yerinə yetirməkdə çətinlik çəkir.

Hindistanın Qarabağ müstəvisində informasiya müharibəsinə də girişdiyindən söz açan Petersen hindistanlı döyüşçülərin muzdla bölgədəki döyüş əməliyyatlarında iştirak etmək üçün cəlb edilməsinə də diqqət ayırıb. Doğrudur, o, bu fikri deyərkən, Azərbaycan mediasına istinad etdiyini bildirib.

S.Petersen onu da bildirib ki, Pakistanın və Hindistanın aktivləşməsinin Qarabağdakı hadisələrin gələcək inkişafına necə təsir göstərəcəyini söyləmək hələ tezdir. Lakin o, yeni geosiyasi konfiqurasiyada ATƏT, NATO və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi ənənəvi aktorların təsirinin zəiflədiyi düşüncəsindədir.

*Ə.RÜSTƏMOV,*
*"Xalq qəzeti"*

# Ermənistan üçüncü müharibə axtarışındadır

## Diplomatiya müstəvisində ümidləri tükənmiş İrəvanın davranışları bundan xəbər verir

**Günlərin birində dovşanın balasını ayı döyür. Bala dovşan anasının üstünə şikayətə gəlir. Anası balasını götürüb ayının yanına yollanır və çatan kimi ayıya, guya, hədə-qorxu gəlməyə başlayır. Üzünü-gözünü turşudub balasını ayının qabağına qoyub ondan bir dəfə də vurmağı tələb edir. Ayı vurur, dovşan balası şil-küt olur. Anası balasını qaldırıb yenidən qoyur ayının qabağına və təkrar vurmasını istəyir. Ayı yenə də bir şapalaq endirir. Üçüncü dəfə ana dovşan eyni hərəkəti edəndə ayı vurmaqdan imtina edir. Dovşan geri qayıdanda balası yolda anasından nə üçün onu ayıya döydürdüyünü soruşur. Ana dovşanın cavabı belə olur: ayının hünəri var idisə, səni üçüncü dəfə də vuraydı, gör, ona neynəyərdim...**

Azərbaycan – Ermənistan münasibətlərindəki duruma nəzərə salanda, yada həmin lətifə düşür. Sanki kimlərsə istəyir ki, Azərbaycan Ermənistanı yenə döysün. Belələri baş nazir Nikol Paşinyanı "övladlığa" götürüblər, öz yerində, bütövlükdə, Ermənistan özünü bala dovşan kimi aparır. Ancaq yalnız şikayət etməklə kifayətlənmir, habelə əda nümayiş etdirir. Sanki 44 günlük müharibədə darmadağın olan ölkə bir başqasıdır. Ümumən, Ermənistan cəmiyyəti İkinci Qarabağ müharibəsinin acınacaqlı nəticələrini unudub kimi görünür. Bu unutqanlığın isə əlamətləri çoxdur və bir yandan artmaqda davam edir.



***

BMT Təhlükəsizlik Şurasının avqustun 16-da keçirilmiş iclasında Qarabağda humanitar böhran şousu dəstək qazanmadıqdan sonra, Ermənistan cəmiyyətində isterik depressiya yaranıb. Durumun müxtəlif təzahürləri var və həmin təzahürlər göstərir ki, İrəvan düz yola gəlmək niyyətində deyil. Ermənistanda Azərbaycanın reinteqrasiya təkliflərini heçə sayan, bu təşəbbüsün qeyri-səmimi olduğunu vurğulayan fikirlər tirajlanmaqdadır. Belə səfsəfələrin fonunda yeni müharibə dalğasını görənlər də var.

Belə rəy formalaşdırılır ki, guya, Bakı Qarabağ ermənilərinə vətəndaş olaraq yanaşa bilməz, reinteqrasiya oyundur, məqsəd erməniləri Qarabağdan tamamilə çıxarmaqdır. Əlbəttə, erməni ictimai rəyi məsələyə soyqırımı və etnik təmizləmə kimi libaslar da geyindirməkdədir. Mövcud xüsusda, dünyaya müraciətlər sıralanır, hətta bəzən beynəlxalq aləm Qarabağ ermənilərinin taleyinə biganə yanaşmaqda ittiham olunur da.

Bu sayaq isterikanın formalaşmasında həlledici "rol" Ermənistan hakimiyyətinə məxsusdur. Rəsmi İrəvan BMT müstəvisindəki uğursuzluqdan sonra özünə yer tapa bilmir. Yaxşı anlayır ki, diplomatik platformada Azərbaycana qarşı fəaliyyət heç bir nəticə verməyəcək. Amma cəhdlərini davam etdirir və bu davamiyyət üçün Bakını dünyanın gözündən salmaq meyili aktualdır.

Bəli, hələlik tipik erməni baxışlarındakı Azərbaycan aqressiyası güc metodunun tətbiqindən uzaqdır. Daha doğrusu, gücün yerini isterika tutub. Bu isterika üçün bir neçə xarakterik məqsəd var. Bunlardan birincisi, daxildə mütərəqqi düşünmək, Azərbaycanla sülh müqaviləsinin bağlanmasını istəyən azsaylı kəsimin səsini batırmaqdır. İkinci məqsəd isterikanın davamlılığı fonunda azərbaycanlılarla ermənilərin heç zaman birgə yaşaya bilməyəcəyi görüntüsünü formalaşdırmaqdır. Üçüncüsü, mövcud status-kvonu saxlayaraq vaxt udmaq. Əlbəttə, vaxtın udulmasındakı hədəf güclənmək və yeni müharibə ilə itirilmiş mövqeləri bərpa etməkdir.

Ancaq indilik Ermənistan Azərbaycandan sadəcə qorxur. Ona görə haqqında söz açdığımız güclənmək və yeni müharibə məqsədi perspektiv üçün nəzərdə tutulur. Daha çox, Azərbaycanın, guya, Ermənistanın üzərinə hücuma keçəcəyi ritorikasına baş vurulur.

Dördüncü və ən vacib məqsəd Azərbaycanla sülh gündəliyindən yayınmaqdır. Diqqət yetirək, artıq Bakı – İrəvan danışıqları sanki yoxmuş kimi bir mənzərə var. Əlbəttə, Azərbaycan cəmiyyətinin yekdil qənaəti budur ki, Ermənistanla sülh müqaviləsi imzalansa belə, ölkəmiz hər zaman, necə deyərlər, əli tətikdə dayanacaq. Nəzərə alaq ki, Ermənistan kimi qonşumuz varsa, əli tətikdə dayanmağa sadəcə məhkumuq.

Qeyd edək ki, əvvəllər Ermənistan dövləti, eləcə də ölkənin siyasi dairələri Azərbaycan hakimiyyətinin Qarabağın erməni icmasının nümayəndələri ilə danışıqlar təşəbbüsünə qarşılıq, Bakı – Xankəndi dialoqu kimi bir format təklif edirdilər. Bu təqdimat bölgədəki separatçı rejimə mənəvi leqallıq statusu qazandırırdı. Aydın idi ki, belə manipulyasiyalar Bakının siyasi-diplomatik mövqeyini zəiflətməyə hesablanmışdı. Lakin hazırda bu məsələ gündəmdən çıxıb. Dialoqun mümkünsüzlüyü üzərində dayanılarkən isə haqqında söz açdığımız isteriya ön plana keçir.

***

Ermənistan üçün bala dovşan obrazını canlandırdıq. Ölkə həm də tutduğu pis əməl səbəbindən döyüləcəyini başa düşən uşaq kimidir. Onun rəhbərliyi və siyasi dairələri bar-bar bağırırlar ki, döyülməsinlər. Amma onu da deyək ki, bu uşaq son dərəcə sırtıq və həyasızdır. Həyasızlıq salanlardan biri də siyasi müşahidəçi Arman Abovyandır. O deyir ki, Ermənistana və Qarabağa qarşı gözlənilən hərbi eskalasiyanın əlamətləri görünür.

Müharibə məsələsi gündəmə gəlirsə, bir qayda olaraq, Türkiyə amili də qabardılır. Ermənistanda artıq bu, adət halını alıb. Ölkənin bir sıra siyasi ekspertləri, o cümlədən Abovyan da köhnə boqajdan çıxış edir. O, Türkiyə – Azərbaycan tandeminin Ermənistana qarşı gözlənilən hərbi eskalasiyasının işartılarını Türkiyə rəsmilərinin fikirlərində axtarır. Bu baxımdan qardaş ölkənin Xarici işlər naziri Hakan Fidanın dediklərinin üzərində dayanır. Abovyanın sözlərinə görə, H.Fidanın Zəngəzur dəhlizinin açılması ilə regional kommunikasiyaların şaxələndirilməsinə dair baxışı Sünikin (Zəngəzurun – red.) işğalını nəzərdə tutur və bu, Ermənistanın suveren ərazisinin bir hissəsinin ekstraterritorial statusu deməkdir.

***

Göründüyü kimi, Ermənistan ictimai mühitinin təmsilçiləri, elə hakimiyyət nümayəndələri də, necə deyərlər, hər şeyi öz arşınları ilə ölçməkdə həvəslidirlər. Onlar Bakını təcavüzkar olaraq qələmə verməklə, sanki onunla danışıqların əhəmiyyətsizliyini göstərirlər. Əslində, isə danışıqlardan, sülhdən yayınmaq yolu tutan özləridirlər. Onlar, həmçinin, hazırda tutduqları mövqenin nəyə doğru apardığının da fərqindədirlər.

Əlbəttə, Ermənistan üçün müharibə gözləntisi də bir məqsəddir, elə müharibənin özü də. Yəni, uşaq ona görə döyülmək istəyir ki, müharibə qlobal konfrantasiyalar, ziddiyyətlər meydanına çevrilsin. Görünür, Ermənistan belə riskli gedişdə nikbin perspektiv axtarmaq niyyətinə köklənib. Deməli, onun son günlər təmas xəttində təxribatlar törətməsi, atəşkəsi pozması halları heç də təsadüfi deyil.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

---

(əvvəli 1-ci səhifədə)

# Arutyunyan–Vardanyan qarşıdurması açıq müstəviyə keçib

## Deyəsən, Qarabağ separatçıları son güllələrini bir-birinə atacaqlar

Bu gün Akobavəngdən (ləğv olunmuş Ağdərə rayonunun Kolatağ kəndi yaxınlığında yerləşən V-VII əsrlərə aid alban abidəsi–S.H.) çiyinlərində böyük yük, böyük məsuliyyət, məğlubiyyət hissi daşıyan Arayik Arutyunyana demək istəyirəm ki, siz nə lider, nə də baş komandan ola bildiniz. Çox təəssüf!"

O, əlavə edib ki, bir-birinə inam anlayışının Arutyunyan üçün heç bir əhəmiyyəti yoxdur: "Siz yalnız pul və vəzifə ilə hamını idarə etməyin mümkünlüyünə inanırsınız. Arayik, siz yanılırsız. Siz sözünüzün üstündə dura bilməməklə, sözünüzü heçə çevirməklə səhv etmisiniz. Həftənin əvvəlində dediniz ki, istefaya gedəcəksiniz və artıq qərar verdiyiniz üçün sizi yolunuzdan döndərməyə çalışmağa ehtiyac yoxdur. Birinci şəxsin sözünə artıq inamın olmaması ağırdır. Digər şəxslərə dediniz ki, sizə təzyiq var və vəzifədən getmək istəmirsiniz. Siz hər dəfə fərqli insanlara fərqli şeylər deyirsiniz və bu, qəbuledilməzdir. Siz bizim bir yumruqda birləşməyimizi istəmirsiniz və bu, adamı ağrıdır. Siz prinsipləri, dəyərləri, ideologiyanı, insan münasibətlərini ikinci dərəcəli hesab edirsiniz. Bu, kədərlidir, mənim sizə yazığım gəlir – sizin həyatınız dəhşətlidir".

R.Vardanyan A.Arutyunyanın ötən həftə Qarabağ erməniləri ilə münasibətlərdə son qırmızı xətləri keçdiyinə əmin olduğunu bildirib. Daha sonra isə onu "dövlət qurumları"nı məhv etməkdə suçlayıb: "Siz "dövlət qurumları"nı məhv edirsiniz. Son 30 ildə müxtəlif insanların – istər yaxşı, istər pis – qurduğu "dövləti" məhv edirsiniz. Sizin buna haqqınız yoxdur. Siz etdiklərinizə görə qarabağlılara cavab verməli olacaqsınız. Mən onların yanında dayanacağam. Əgər onlar bu sualı vermirlərsə, bu, onların qərarıdır. Amma mən bir şeyə əminəm. Siz bir az sadəlövh, bəzən bir az hiyləgər, uşaqlarının Qarabağda böyüməsi üçün hər cür çətinliyə hazır olan "xalqımızın" ümid və inamını qırırsınız. İnsanlarda ən vacib olanı – bir-birinə olan inamı, milli və bəşəri dəyərləri məhv edirsiniz. Bu, qəbuledilməzdir, çünki bu, bizim hamımıza, bizim nəsillərimizə vura biləcəyiniz ən böyük zərbədir".

***

"Qolos Armenii" ictimai-siyasi qəzetinin dünənki sayında dərc olunmuş "Arayik Arutyunyanın istefası çox şeyi dəyişəcək" sərlövhəli məqalə də diqqəti cəlb edir. Məqalədə bildirilir ki, BMT Təhlükəsizlik Şurasının iclası ermənilər üçün uğursuz olub: "Rejim lideri (Paşinyan rejimi nəzərdə tutulur – S.H.) "blokada"nın götürülməsi zərurəti ilə bağlı bütün bəyanatları öz aktivinə yazıb. Avqustun 16-dan sonra Paşinyanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan bəyanat verməyə tələsib ki, BMT Təhlükəsizlik Şurasına müraciət heç də Ermənistanın sülh sazişi üzrə danışıqlardan çıxması demək deyil. Marukyan müqavilənin mətni üzrə işlərin sentyabr ayında davam etdiriləcəyinə ümid bəsləyib. Azərbaycan mediası sülhməramlıların Rusiya pasportu olan yerli sakinləri Qarabağdan evakuasiya etdiyi barədə məlumat yayır. Atəşkəs pozuntularının artması fonunda erməni mənbələrinin də təsdiqlədiyi bu məlumat təşviş doğurmaya bilməz".



Politoloq Armen Badalyan vurğulayıb ki, İrəvanda və Xankəndidə çoxları ümidlərini Təhlükəsizlik Şurasının iclası ilə vəziyyətin yaxşılaşacağına bağlamışdı: "Ancaq Təhlükəsizlik Şurasının iclası bir daha sübut etdi ki, Rusiyanın Ukraynada xüsusi əməliyyatı başlayandan sonra bütün məsələlər silahın gücü hesabına həllini tapır". Onun sözlərinə görə, guya, yeni dünya nizamında BMT və digər nüfuzlu beynəlxalq təşkilatlar öz maraqlarından çıxış edərək qərarlar qəbul edirlər, heç kimə sirr deyil ki, bəzi hallarda bu təşkilatların sözləri əməldən xeyli fərqlənir. Badalyan Qarabağdakı vəziyyətin həllini birbaşa hakimiyyətin dəyişməsi ilə əlaqələndirib.

Onun sözlərinə görə, Qarabağda "parlamentin sədri"nin dəyişdirilməsi heç də təsadüfi deyildi. Lakin prosesə 50 faiz Paşinyanın, 50 faiz də Rusiya sülhməramlılarının təsiri altında olan A.Arutyunyanın istefasını tələb etməklə son qoyulmalıdır. Badalyanın fikrincə, nə qədər ki, Qarabağda ikili hakimiyyət var, vəziyyətdən çıxış yolu olmayacaq: "Xatırladım ki, general Vitali Balasanyanı, guya, Qarabağdan tankları çıxarmaqda ittiham edən "Təhlükəsizlik Şurası"nın keçmiş katibi, general Samvel Babayan birbaşa danışıqların qəti tərəfdarıdır".

Badalyan hesab edir ki, Qarabağ probleminin yekun həlli bilavasitə Rusiyanın Ukraynadakı xüsusi əməliyyatının nəticəsindən asılıdır. Qərb mediasının 2024-cü ildə Ukrayna Silahlı Qüvvələrinin növbəti əks-hücumunu proqnozlaşdırmasına baxmayaraq, Badalyan xüsusi əməliyyatın 2024-cü ildə başa çatacağı ilə bağlı proqnozlar səsləndirib. Onun sözlərinə görə, bundan 3-4 həftə sonra Moskva Qarabağ problemi ilə məşğul olacaq.

Təhlilçi Edqar Elbakyan, əksinə, hesab edir ki, bu cür bəyanatlar miflərlə həmsərhəddir. Çünki onun fikrincə, Rusiya Federasiyasının xüsusi əməliyyatın nəticəsinin necə olmasından asılı olmayaraq, Cənubi Qafqazda müasir strategiyası yoxdur. Elbakyan hesab edir ki, Qarabağdakı vəziyyətə təsir etməyin yeganə yolu Ermənistanda hakimiyyət dəyişikliyidir.

***

Bu arada "Sputnik Ermənistan" agentliyinin dünən yaydığı məlumat da xüsusi maraq doğurur. Qeyd olunur ki, Rusiya sülhməramlıları avqustun 21-də 60 nəfərə yaxın şəxsi Qarabağdan çıxarıblar. Bunlar Rusiya vətəndaşları, həmçinin Ermənistan və digər ölkələrin ali məktəblərinə daxil olmuş tələbələrdir. Vətəndaşların daşınması iyunun 14-dən bəri ilk dəfə həyata keçirilir. Rusiya vətəndaşları bütün bu müddət ərzində Qarabağı tərk etmək üçün gözləyiblər. Sülhməramlı kontingentlə əldə olunan razılaşmalara əsasən, yaxın vaxtlarda Rusiya vətəndaşlarının və tələbələrinin çıxarılması davam etdiriləcək.

Erməni mənbələri çıxarılan şəxsləri sadəcə, Rusiya vətəndaşları və tələbələr kimi təqdim etsələr də, əslində, dünən Xankəndi–Gorus istiqamətində "Laçın" sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidi təmin edilən 60-a yaxın erməni əsilli şəxs adi insanlar deyillər. Onların əksəriyyəti Rusiya vətəndaşlığını qəbul etmiş, RF pasportu daşıyan, əsasən, Azərbaycan ərazisində separatizmi alovlandırmağa çalışan, ona dəstək verən şəxslərdir.

Göründüyü kimi, həm Vardanyan–Arutyunyan qarşıdurmasının açıq müstəviyə keçməsi, həm erməni politoloqların hansısa möcüzəyə ümid etmələri, həm də Qarabağdan Rusiya vətəndaşlarının çıxarılması proseslərin geridönməz şəkil aldığını göstərir. Artıq ermənilər Azərbaycan cəmiyyətinə reinteqrasiyadan başqa çıxış yollarının qalmadığını aydın dərk edirlər. Azərbaycan dövlətinin addım-addım öz hədəflərinə çatmaq istiqamətində yürütdüyü siyasət öz bəhrəsini verməkdədir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**politoloq**

– Azərbaycan Qarabağdakı ermənilərə təhlükəsiz həyat təklif edir, bunu istəməyənlərə qapı açıqdır, çıxıb gedə bilərlər. Ölkəmizin mövqeyi beynəlxalq praktikaya uyğundur. Hər bir dövlət ərazisində yaşayan azlıqlara öz maraqlarını qoruyaraq, ərazi bütövlüyünü üstün tutaraq, hüquqlar verir, onların təhlükəsizliyini təmin edir. Biz də bunu edirik və bundan sonra da etməyə hazırıq. Ermənilər Laçın yolunu vaxtilə tamamilə başqa məqsəd üçün istifadə ediblər. Oradan silah-sursat, terrorçular, qeyri-humanitar yardımlar daşınırdı. Təbii ki, biz buna razı ola bilməzdik. Ona görə də dinc şəkildə torpaqlarımızda yaşamaq istəməyənlərə qapı açıqdır, ərazimizi tərk edə bilərlər, bu məsələdə heç bir maneə yoxdur.

Azərbaycan Qarabağda yerləşən 10 min nəfərlik qeyri-qanuni silahlı dəstənin çıxarılmasına nail olmalıdır. Bizi daha çox narahat edən məsələ onların Qarabağdakı varlığıdır. Bizim onları ərazimizdən çıxarmaqdan başqa yolumuz yoxdur və mütləq çıxaracağıq. Oradakı separatçılar hələ ki regionda maraqları olan havadarlarına arxalanırlar. Amma zaman göstərir ki, biz bir çox məsələlərlə hesablaşmırıq, bizim üçün əsas məsələ öz maraqlarımızdır və bu maraqlar çərçivəsində hərəkət edəcəyik. Əgər bu xəttə gəlib çatmışıqsa, sonadək getməliyik. Hələlik diplomatik müstəvidə ciddi şəkildə xəbərdarlıq edirik. Dünya birliyi, beynəlxalq təşkilatlar, Ermənistan və Qarabağda yaşayan etnik ermənilər bunu bilsinlər ki, Qarabağın erməni sakinləri Azərbaycan qanunları ilə yaşamalıdırlar.

# Azərbaycan–Özbəkistan dostluq və qardaşlıq münasibətləri müstəqillik illərində

**Müasir müstəqil Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatmaq üçün gələcəyə hesablanmış uğurlu daxili və xarici siyasət həyata keçirir. Bütün dövlətlər və xalqlarla sülh, dostluq şəraitində yaşamaq niyyətini dəfələrlə bəyan edən ölkəmiz ən mötəbər beynəlxalq təşkilatlarda təmsil olunaraq qarşılıqlı əlaqələrin genişləndirilməsi və bu münasibətlərin çoxşaxəli əməkdaşlığa çevrilməsi istiqamətində fəal iş aparır, dünyada və regionda sülhün, təhlükəsizliyin qorunmasına və möhkəmlənməsinə layiqli töhfələr verir. Etibarlı tərəfdaş, sözü ilə əməli bir olan, dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına mühüm töhfələr verən müstəqil Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra bölgədə tamamilə yeni reallıq yaradıb. Regionda və dünyada nüfuzu durmadan artan Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergücləri və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Azərbaycanın həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri regiondakı digər dövlətlərin də inkişafına, xalqların rifahına xidmət edir. Məhz bu amillər Azərbaycan ilə müxtəlif ölkələr arasında ikitərəfli əlaqələrin sürətli inkişafına təkan verir. Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan ilə münasibətlərin inkişafı mühüm yer tutur. Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistan ilə Azərbaycan arasında əlaqələr xüsusilə son illərdə durmadan genişlənir.**



AZƏRTAC-ın Azərbaycan–Özbəkistan əlaqələrinin tarixinə və inkişaf yoluna nəzər salan şərhinin davamında bildirilir ki, ölkələrimizin diplomatik münasibətlərinin 1995-ci il oktyabrın 2-də qurulmasına baxmayaraq, Azərbaycan və özbək xalqları arasında ənənəvi dostluq və qardaşlıq əlaqələri tarixən mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Təsadüfi deyil ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə alıb.

Özbəkistanın sabiq Prezidenti İslam Kərimov dövlətlərimiz və xalqlarımız arasında mədəni əlaqələrə toxunaraq demişdir ki, Daşkənd və Bakı şəhərlərində dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin ucaldılması, Azərbaycan paytaxtının küçələrindən birinə dünyaşöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında tarixən mövcud olan qarşılıqlı marağın və hörmətin parlaq nümunələridir.

Bakıda, İçərişəhərdə yerləşən, XV əsrə aid Buxara karvansarası Mərkəzi Asiyadan gələn tacirlər tərəfindən inşa edilib. XVI-XVII əsrlərdə yaşamış Azərbaycan filosofu, şairi və böyük din xadimi, əslən Qarabağdan olan Yusif ibn Məhəmmədcan Qarabağinin qəbri Özbəkistanın Səmərqənd şəhərində yerləşir. Bu faktlar münasibətlərimizin keçmişindən xəbər verir və göstərir ki, hələ XV əsrdə xalqlarımız arasında ticarət əlaqələri və elmi mübadilə mövcud olub.

İki qardaş xalq arasında mədəni əlaqələr sovet dönəmində də xeyli inkişaf edib. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da yaxından iştirak ediblər. Bu gün 70 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. Xüsusilə xatırlatmaq lazımdır ki, Azərbaycan və özbək xalqları SSRİ rəhbərliyi, ələlxüsus Mixail Qorbaçovun hakimiyyəti zamanı məqsədyönlü şəkildə müxtəlif sahələrdə ayrı-seçkiliyin qurbanı olublar. 1989-cu ilin iyununda baş vermiş Fərqanə hadisələri SSRİ rəhbərliyinin, ələlxüsus M.Qorbaçovun türk düşmənçiliyinin bariz nümunəsidir. 20 Yanvar və Sumqayıt hadisələrində də eyni dəst-xətti görmək mümkündür. 1918-ci ilin fevralında bolşeviklərin dəstəyi ilə Daşnaksütun partiyasının hərbi qanadı tərəfindən Kokand vilayətində özbəklərə qarşı soyqırımı törədilib. Təkcə üç gün ərzində bu şəhərdə 10 minə yaxın dinc sakin qətlə yetirilib. Ümumilikdə, həmin hadisələr zamanı 35 minə yaxın özbək öldürülüb. Hazırda çoxsaylı erməni icmasının yaşamasına baxmayaraq, Özbəkistanda Ermənistan səfirliyi və Ermənistanda Özbəkistan səfirliyi fəaliyyət göstərmir.

Azərbaycanla Özbəkistanın dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq, qardaşlıq münasibətləri daha da inkişaf etdirilib və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəyə gəlib çatıb. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında və dövlətlərarası münasibətlərin formalaşmasında ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub. Prezident İslam Kərimovun 1996-cı ildə Azərbaycana və ümummilli lider Heydər Əliyevin isə 1997-ci ildə Özbəkistana səfərləri zamanı ölkələrimiz arasında münasibətlərin strateji istiqamətləri müəyyən edilib. Belə ki, Prezident İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb.

1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub.

1997-ci il iyunun 18-19-da ümummilli lider Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər arasında "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" böyük əhəmiyyət kəsb edir. Həmin sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquq-müqavilə bazası yaradıb. Sənədlərin imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev deyib: "Biz Azərbaycanda Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər olsun, onlar inkişaf edib möhkəmlənsin". Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov isə bildirib: "İki ölkə arasındakı münasibətlər məhz strateji əməkdaşlıq səciyyəli olacaqdır".

Prezident İlham Əliyev hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirərək bildirib: "Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov – iki ölkənin liderləri ikitərəfli münasibətlərin bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni, bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar".

1996-cı ildə Azərbaycanın Özbəkistanda, 1998-ci ildə isə Özbəkistanın Bakıda səfirliklərinin fəaliyyətə başlaması ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinə əlavə töhfə oldu.

Ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də Özbəkistan ilə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişafına xüsusi diqqət yetirir. Dövlətimizin başçısının 2004-cü il martın 23-24-də Özbəkistana dövlət səfəri zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji tərəfdaşlıq münasibətlərinin əsasını qoyan həmin sənəddə tərəflərin keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdikləri ifadə olunub. Özbəkistan keçmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. Belə ki, Özbəkistan 2008-ci il martın 14-də BMT Baş Assambleyasında səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub. Həmçinin 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəbin inşa ediləcəyini bildirib. Artıq bu istiqamətdə işlər yekunlaşıb.

Hazırda Azərbaycan–Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri də həlledici rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət səfərləri və rəsmi səfərlərdən əlavə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 2022-ci il Azərbaycan–Özbəkistan əlaqələrinin inkişafı baxımından xüsusilə məhsuldar olub. Məhz həmin il dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisidir. Ötən il iyunun 21-22-də Özbəkistana dövlət səfəri həyata keçirən Azərbaycan Prezidenti sentyabrın 15-16-da Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilmiş Sammitində fəxri qonaq qismində iştirak edib. Həmçinin Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün noyabrın 10-11-də Özbəkistanda səfərdə olub. Dövlətimizin başçısının bütün bu səfərləri zamanı əldə edilmiş razılaşmalar Mərkəzi Asiyanın aparıcı ölkələrindən olan Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirib.

Mühüm nəqliyyat marşrutlarının üzərində yerləşən Azərbaycan və Özbəkistan bu sahədə də fəal əməkdaşlıq həyata keçirir. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq ölkəmizdə bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və Azərbaycan beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bütün bunlar Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən, Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verəcək. Prezident İlham Əliyevin ötən ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Həmin səfər zamanı dövlət başçılarının diqqət göstərdiyi əsas istiqamətlərdən biri də mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi oldu. Məhz bu niyyətin ifadəsi olaraq, Azərbaycanın və Özbəkistanın mədəniyyət xadimlərinin bir qrupu dövlət başçılarının sərəncamları ilə yüksək fəxri adlar, orden və medallarla təltif edildi. Bir neçə gün əvvəl – avqustun 1-4-də isə Bakıda Özbəkistan mədəniyyət günləri böyük təntənə ilə keçirildi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin avqustun 22-də Azərbaycana gözlənilən dövlət səfəri qardaş ölkələrimiz arasında münasibətlərin tarixində yeni səhifə olacaq. Bu səfərin gündəliyinə Özbəkistan–Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və çoxşaxəli əməkdaşlığın genişləndirilməsi məsələləri daxildir. Səfər zamanı ticarət dövriyyəsinin həcminin artırılması, biznes və regional səviyyədə əməkdaşlığın gücləndirilməsi, birgə investisiya layihələrinin təşviqi, nəqliyyat və tranzit sektorunda imkanlardan səmərəli istifadə edilməsinə dair müzakirələrin aparılması, bir sıra mühüm sənədlərin imzalanması nəzərdə tutulur.

Özbəkistan Prezidentinin işğaldan azad edilən ərazilərə planlaşdırılan səfəri qardaş ölkənin Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərinə töhfə və dəstəyinin daha bir göstəricisi olacaq. Belə ki, səfər zamanı Füzulidə Özbəkistan tərəfindən inşa olunmuş 960 şagird yerlik məktəb binasının, eləcə də yeni tikilmiş bir sıra obyektlərin açılışları və yeni layihələrlə tanışlıq nəzərdə tutulur.

Beləliklə, eyni soykökə və uzun tarixə söykənən Azərbaycan–Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış 160-dan çox sənəd, o cümlədən, Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

# Bakı–Daşkənd: ortaq hədəflərə doğru

**Avqustun 21-də Bakıda Azərbaycan–Özbəkistan biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida, tekstil, əczaçılıq, tikinti, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.**





Forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan və Özbəkistan dövlət başçılarının siyasi iradəsi və birgə səylərinin ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdığını vurğulayıb. Qeyd olunub ki, imzalanmış 160-dan çox sənəd, o cümlədən, Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə möhkəm ikitərəfli hüquqi baza yaradır. Özbəkistanla əməkdaşlıq çoxvektorludur və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir, birgə layihələr, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir. Azərbaycan–Özbəkistan İnvestisiya Fondu isə iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə, qarşılıqlı investisiyaların stimullaşdırılmasına, ölkələrimizin regionları və işgüzar dairələri arasında əlaqələrin inkişafına mühüm töhfə verəcək. Qarşılıqlı münasibətlərin sürətli inkişafı ticarətin dinamikasına da müsbət təsir göstərir. Ticarət dövriyyəsinin artırılması üçün geniş potensial var və bu sahədə təşəbbüslərin intensivləşməsi əhəmiyyət kəsb edir.

Tədbirdə ölkələrimizin biznes qurumlarının tərəfdaşlığı çərçivəsində gerçəkləşdirilən investisiya layihələri, Azərbaycanda birgə avtomobil istehsalı və tekstil müəssisələrinin, pambıq klasterinin yaradılması sahəsində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, enerji sahəsində səmərəli əməkdaşlıq həyata keçirilir. Perspektivli sahələrdən biri də nəqliyyatdır. Bu baxımdan, ölkələrimizin Orta Dəhliz çərçivəsində tərəfdaşlığı böyük potensiala malikdir.

Biznes-forumda Azərbaycanın əlverişli investisiya mühiti, həyata keçirilən iqtisadi islahatlar, sənaye zonaları, Ələt Azad İqtisadi Zonası, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr, sərmayədarlar üçün yaradılan imkanlar barədə məlumat verilib, Özbəkistan tərəfindən Füzulidə 960 şagird yerlik məktəb binasının tikildiyi vurğulanıb, azad edilmiş ərazilərimizin yenidən qurulmasında iştiraka görə qardaş ölkəyə minnətdarlıq ifadə olunub. Özbəkistan şirkətləri ilə sənaye, ticarət, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, turizm və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsi üçün imkanlar diqqətə çatdırılıb.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov qeyd edib ki, dövlət başçılarımızın strateji yanaşmaları ortaq tarixi köklərə və dəyərlərə malik olan ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlər üzrə inkişaf etməsinə mühüm töhfə verir, Azərbaycanla iqtisadi-ticarət tərəfdaşlığı güclənir. Bildirilib ki, əməkdaşlığın genişlənməsi fonunda sahibkarlar arasında işgüzar görüşlərin təşkili, yeni əməkdaşlıq istiqamətlərinin və imkanlarının araşdırılması, birgə layihələrin icrası önəm kəsb edir. Azərbaycanın əlverişli biznes və investisiya mühiti Özbəkistan sahibkarları üçün cəlbedicidir və tərəfdaşlıq stimulunu artırır.

Tədbirdə Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Özbəkistanın İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi yanında Xarici İnvestisiyaların Cəlb Edilməsi Agentliyinin direktoru Murat Mirzayev Azərbaycan və Özbəkistanın, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov azad iqtisadi zonanın investisiya və ticarət imkanlarına dair təqdimatlarla çıxış ediblər. Həmçinin İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov rəhbəri olduğu qurumun fəaliyyəti, iki ölkənin işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsi imkanları, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Davron Vahabov biznes əlaqələrinin inkişaf etdirilməsi, müxtəlif sahələr üzrə fəaliyyət göstərən sahibkarların cəlb edilməsi ilə işgüzar şura yaradılması barədə fikirlərini bildirib. "Uzbektekstilprom" Assosiasiyasının rəhbəri İlxom Haydarov qurumun fəaliyyəti və Azərbaycanda birgə həyata keçirilən layihələr barədə məlumat verib.

Biznes-forum çərçivəsində Azərbaycan və Özbəkistan qurumları arasında metallurgiya, akkreditasiya, energetika və əczaçılıq sahələri üzrə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

Tədbir B2B formatında görüşlərlə davam etdirilib.

**"Xalq qəzeti"**

# Hərbi hissədə Ümummilli liderin 100 illik yubileyi

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Hərbi Prokurorluq "N" saylı hərbi hissədə Müdafiə Nazirliyi ilə birgə tədbir keçirib.**



Hərbi prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, ədliyyə polkovniki Fərid Şükürov və ədliyyə müşaviri Samir Əzimzadə, polkovnik Təbriz Mirzəyev, polkovnik-leytenant Aqil İsmayılov, həmçinin "Vətənpərvərliyin təbliğinə dəstək" İctimai Birliyinin sədri, vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlı, qazi Rey Kərimoğlu və digər şəxslər ulu öndər Heydər Əliyevin zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Tədbirdən sonra, hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

**"Xalq qəzeti"**

# "Azərbaycançılığın musiqili təqdimatı"



**"Bəhram Nəsibov yaradıcılığının təbliği" İctimai Birliyi tərəfindən mərhum bəstəkar Bəhram Nəsibovun azərbaycançılıq ideologiyasını və ulu öndər Heydər Əliyev şəxsiyyətini vəsf edən mahnılarından ibarət "Azərbaycançılığın musiqili təqdimatı" jurnalının təqdimat mərasimi olub.**

Qeyd edək ki, eyniadlı layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yaxından köməkliyi ilə həyata keçirilir. Layihənin rəhbəri bəstəkarın oğlu, ictimai birliyin sədri Adil Nəsibov bu barədə məlumat verərək deyib: "Bəstəkar Bəhram Nəsibovun şeir, mahnı, marşlarından ibarət topluya mətnlər, not yazıları və əhatə etdiyi mövzuya uyğun olaraq çəkilən şəkillər, eləcə də mövzular haqqında məlumatlar və fotoşəkillər daxil edilib. Jurnal gələcəkdə dərslik vəsaiti kimi də istifadə edilə bilər. Topluda Bəstəkarlar İttifaqının, Rəssamlar İttifaqının rəyləri də öz əksini tapıb. Jurnaldakı məlumatları və fotoları təqdim etdiyinə görə Yeni Azərbaycan Partiyasına, ulu öndər Heydər Əliyevin aforizmlərini təqdim etdiyinə görə isə Azərbaycan Respublikasının Prezident Kitabxanasına təşəkkür edirik"

Jurnala daxil edilən mahnıların not yazılarını sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Rauf Bəhmənli köçürüb. Rəsmlər rəssam Asəf Kərimova məxsusdur.

Təqdimatda çıxışlar olub, iştirakçılara jurnallar paylanılıb və ümummilli liderə həsr olunan musiqilər səsləndirilib.

**"Xalq qəzeti"**

# Qarabağı təhlükəsiz evə necə çevirməli?

## *Ermənilərin Qərbdəki lobbi qrupları saxta təbliğata yüz milyonlarla vəsait xərcləyirlər*

**Amerikanın Jewish Journal nəşri həmyerlimiz Dürdanə Ağayevanın Qarabağ ətrafında cərəyan edən hadisələrə həsr olunmuş məqaləsini dərc edib. Məqalənin Caliber.Az-dan qısa ixtisarla tərcüməsini oxucularımızın diqqətinə çatdırırıq.**

"Xocalı soyqırımının canlı şahidi kimi tez-tez deyirdim ki, həmin gecə yaşadığım dəhşətdən daha pisi yalnız dostlarımın, qohumlarımın və həmyerlilərimin o faciəli aqibətinin təkzibi ola bilər. Xoşbəxtlikdən bizim vaxtımızda həmin qanlı faciə hamı tərəfindən etiraf olundu, onu inkar edənlər isə qınaq obyektidir.

30 illik işğal dövründə etnik təmizləmə aparan və Vətənimin 900 kəndini, 7 şəhərini tamamilə məhv edən, ümumilikdə, 10 min kvadrat kilometrdən çox ərazisini xarabalığa çevirən Ermənistan Azərbaycanın Qarabağ bölgəsində silinməz izlər buraxıb. Həmin işğal əra-





zilərindən qovulan 1 milyondan artıq azərbaycanlı on illərlə məcburi köçkün həyatı yaşamağa məhkum edildi. Onların doğma şəhər və kəndləri isə işğalçı ermənilər tərəfindən, sözün həqiqi mənasında, talan və məhv edildi. 1990-cı illərin əvvəllərindən başlanan erməni hücumları nəticəsində 20 min azərnbaycanlı öldürüldü. Ermənistan dövləti Qarabağa basqın edəndə heç kəsə aman vermədi və heç nəyi salamat qoymadı".

Bütün bunları ürəkağrısı ilə qələmə alan müəlif erməni vandallarının Qarabağda törətdikləri vəhşiliklərin miqyasından və hazırda bölgədə aparılan bərpa-quruculuq işlərindən yazır:

"2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz suveren ərazisini işğalçılardan təmizlədi və dərhal genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bir zamanlar ölkənin ən abad və gözəl bölgəsi sayılan Qarabağdakı dağıntıların dərəcəsi sadəcə, insanı heyrətə gətirir. Torpaqlar azad olunandan sonra bugünədək Bakı işğalçıların məhv etdiyi neçə-neçə şəhər və kəndin bərpasına 7 milyard ABŞ dollarına yaxın vəsait qoyub. Məcburi köçkünlərin özlərinin ata-baba yurduna qayıtmaq hüququnu təmin etməkdən ötrü bərpa işləri sürətlə həyata keçirilir. 2020-ci ildən sonra mindən çox azərbaycanlı köçkün öz evinə qayıdıb. Proqnozlara görə, 2024-cü ilədək daha 10 min nəfər doğma yurdlarına qayıtmalıdır".

Ermənistan qoşunlarının 30 il işğal dövründə Qarabağda 1 milyondan çox mina basdırdığını qeyd edən D.Ağayeva üç ilə yaxındır ki, Azərbaycanın həmin minaları təkbaşına, heç bir beynəlxalq yardım olmadan zərərsizləşdirməklə məşğul olduğunu diqqətə çatdırır:

"Müharibə başa çatandan sonra 300-dən çox azərbaycanlı həmin minaların qurbanı olub. Bu vəziyyət azad edilmiş ərazilərin bərpası və məcburi köçkünlərin qayıdışı üçün ciddi problemə çevrilib. Azərbaycan diqqətini bərpa prosesinə cəmlədiyi vaxt Ermənistan son iki il yarımda bölgənin çoxdan gözlədiyi sülhə maneçilik törətməklə məşğuldur. Onlar Qarabağı Ermənistanla birləşdirən Laçın yolundan bölgəyə mina, silah-sursat daşımaq, əsgər gətirmək və digər qanunsuz işləri üçün istifadə ediblər. Sülhə və regionda sabitliyə təhdid yaradan bu qeyri-leqal fəaliyyətə son qoymaqdan ötrü Bakı özünün suveren ərazisində, Ermənistanla şərti sərhədində nəzarət-buraxılış məntəqəsini yaratmağa məcbur oldu. İyunun 15-də Ermənistan tərəfdən Azərbaycan sərhədçilərinə atəş açılandan və bir hərbçimiz yaralanandan sonra 2 minə yaxın mülki erməni sərbəst şəkildə Ermənistana gedib-gəlmək üçün məhz bu sərhəd postundan istifadə ediblər. Elə o vaxtdan sərhəd məntəqəsi humanitar məqsədlər üçün, tibbi yardım üçün açıqdır.

Ötən ilin dekabrından bu günədək Beynəlxalq Qırmızı Xaç Komitəsi 700-dən çox xəstəni məhz Laçın yolu vasitəsilə Ermənistana aparıb. Amma Qarabağ ermənilərinə zəruri yüklərin çatdırılması üçün ən qısa yol Ağdam şəhərindən keçir və Azərbaycanın bu marşrutu təklifi, təəssüf ki, ermənilər tərəfindən rədd edildi, üstəlik, daşınmaya mane olmaqdan ötrü yola beton plitələr düzdülər".

D.Ağayeva bölgədəki və sərhəddəki son durumu təfsilatı ilə təsvir etdikdən sonra İrəvanın və Xankəndidəki separatçıların Azərbaycanın ünvanına yalan və böhtan dolu iftiralar yağdırdığını, "blokada" dezinformasiyasını dövriyyəyə buraxdığını yazır. O, İrəvanın beynəlxalq hüquqa riayət etmək və Qarabağ ermənilərinə Ağdam yolu ilə yardımın çatdırılmasına şərait yaratmaq əvəzinə, Qərbdəki lobbi qruplarının milyonları hesabına satın aldıqları "siyasətçilərin", "vəkillərin" vasitəsilə KİV-də şantajçı "blokada" kampaniyası apardığını vurğulayır.

**Müəllif məqaləsini nikbin notlarla yekunlaşdırır:**

"Mən fəxr edirəm ki, bu qədər problemin içində Vətənim Azərbaycan Qarabağın, etnik ermənilər də daxil olmaqla, hamının təhlükəsiz evi olması üçün mümkün olan hər şeyi edir. Qarabağ bölgəsinin gözəlliyinin bərpasının şahidi kimi hiss edirəm ki, mənim qızım, eləcə də sonrakı nəsillər əcdadlarımızın Vətənində sülh və əmin-amanlıq içində yaşaya biləcəklər. Ümid edirəm ki, suverenliyimizi və təhlükəsizliyimizi pozmaq cəhdləri puç olacaq, zorakılığı və müharibəni təbliğ edənlər kursu dəyişib sülhü seçəcək. Bunu reallığa çevirməyin məqamı yetişib".

**Təqdim etdi:**
**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

# Azərbaycan öz müşahidələrini BƏM-ə təqdim edib

**Dünən Azərbaycan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı işdə (Azərbaycan Ermənistana qarşı) Ermənistanın qaldırdığı ilkin etirazlara dair öz müşahidələrini Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib. "XQ" xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib.**

"Ermənistanın İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Beynəlxalq Konvensiyanı pozması birbaşa olaraq BƏM-in yurisdiksiyasına aiddir", o, paylaşımda qeyd edib.

**"Xalq qəzeti"**

# Hindistan Ermənistana yenə hərbi texnika daşıyır

**Hindistan İran vasitəsilə Ermənistana silah tədarük etməyə davam edir.**



"Kırım" xəbər agentliyi xəbər verir ki, Təbrizin Şordərə bölgəsində Ermənistana hərbi texnika daşıyan yük avtomobilləri görüntülənib.

Sözügedən görüntülərin isə avqustun 18-i Təbriz sakinləri tərəfindən lentə alındığı bildirilir.

Xatırladaq ki, bir müddət əvvəl Nordüz (İran) sərhəd-keçid məntəqəsindən Ermənistana avtomobil kolonunun hərəkəti qeydə alınıb. Yayılan görüntülərdən aydın müşahidə olunub ki, daşınan yükü gizlətmək üçün onun üzərinə göy rəngdə tent atılıb. Lakin aydındır ki, İrandan Ermənistana daşınan yüklər hərbi məqsədlər üçün nəzərdə tutulub.

Qeyd edək ki, Ermənistanla Hindistan arasında dəyəri milyonlarla dollar təşkil edən hərbi müqavilələr imzalanıb.

# Ermənistanın terror təşkilatları dünyanın 22 ölkəsində cinayət törədib

**Azərbaycan Xarici İşlər Nazirliyi Beynəlxalq Terror Qurbanlarının Xatirəsini Anma Günü ilə bağlı paylaşım edib. "XQ" xəbər verir ki, paylaşımda deyilir:**

"Bu gün biz erməni terror aktlarının günahsız qurbanlarını yad edir və xatirələrini ehtiramla anırıq. Erməni terrorunun qurbanı təkcə Azərbaycan deyil. Məlumdur ki, terroru dövlət səviyyəsində dəstəkləyən ölkə olan Ermənistanın terror təşkilatları, o cümlədən, ASALA dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədib.

Azərbaycana qarşı ərazi iddialarından sonra erməni terror təşkilatları 1980-ci illərdən başlayaraq Azərbaycanın mülki əhalisini hədəfə alıb. İctimai avtobusların, metro qatarlarının partladılması da daxil olmaqla mülki azərbaycanlılara qarşı 30-a yaxın irimiqyaslı terror aktı törədilib.

Ermənistanın işğalı zamanı dinc əhaliyə qarşı terror aktları ilə yanaşı, soyqırımlar, insanlığa qarşı cinayətlər törədilib. Bir gecədə 613 azərbaycanlının qətlə yetirildiyi Xocalı Soyqırımı bu cinayətlərin bariz nümunələrindən biridir.

Ermənistan terroru pisləmək əvəzinə terroru tərifləməklə məşğuldur. Bu yaxınlarda İrəvanda "Nemesis" terror əməliyyatına həsr olunmuş abidənin açılışı da bunun göstəricilərindən biridir. Bu cür məsuliyyətsiz addımlar beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə pislənməlidir.

Terrorizm Qurbanlarının Anılması ilə bağlı Beynəlxalq Gündə beynəlxalq sülhü və təhlükəsizliyi təhdid edən terrorizmdən əziyyət çəkən bir ölkə olaraq biz beynəlxalq terrorizmlə mübarizə səylərinə daha da töhfə verməyə hazırıq".

Qeyd edək ki, avqustun 21-də BMT-nin Terrorizm Qurbanlarının Xatirəsini Anma Günüdür.

**"Xalq qəzeti"**

# Müdafiə Nazirliyinin məlumatı

**Avqustun 21-də saat 19:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri ilə üzbəüz mövqelərini gücləndirmək məqsədilə "Ural" markalı hərbi nəqliyyat vasitəsində yerdəyişmə fəaliyyəti müşahidə edilib.**

Bu barədə "XQ"'yə Müdafiə Nazirliyindən bildirilib.

Bildirilib ki, bölmələrimizin sayıqlığı nəticəsində qeyd olunan istiqamətdə qəti tədbirlər görülüb, yerdəyişmənin qarşısı alınıb.

*

**Avqustun 21-i saat 07:05-dən 07:20-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.**

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

*

**Müdafiə Nazirliyindən "XQ"-yə verilən məlumata görə, bundan başqa, saat 09:30-dan 10:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Yuxarı Zağalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Zəylik və Bəzirxana yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.**

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

*

**"XQ" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi yenidən intensivləşib.**

"Hava məkanımızdan keçən uçuşların təhlükəsizliyinə təhdid yaratmaq məqsədilə qanunsuz silahlı birləşmələr növbəti təxribata əl atıb.

Belə ki, avqustun 21-i saat 10:15-dən 10:23-dək Füzuli-Bakı marşrutu üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarının ATR-45 tipli sərnişin təyyarəsinə radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.

Faktla bağlı Rusiya sülhməramlı kontingentinin komandanlığının tərəfimizdən məlumatlandırılmasına baxmayaraq bu günədək heç bir tədbir görülməyib.

Qeyd edirik ki, mülki aviasiyanın təhlükəsizliyinə radio-texniki müdaxilə qəbuledilməzdir və beynəlxalq mülki aviasiya təşkilatının müəyyən etdiyi qaydalara ziddir", – deyə MN-nin məlumatında bildirilib.

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

Qanuna dəyişikliyin şərhi

# Avtomobil nəqliyyatında yeniliklər



**Prezident İlham Əliyev avqustun 18-də "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. "Avtomobil nəqliyyatı haqqında" Qanun ölkə ərazisində avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Bununla yanaşı, sözügedən sənəd bu sahədə dövlət orqanları (qurumları), daşıyıcılar və avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə xidmətlərin istehlakçıları arasında yaranan münasibətləri tənzimləyir.**

Dəyişikliyə əsasən, ölkədaxili sifarişli daşımalara, taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla qeyri-müntəzəm sərnişin daşımaları və ölkədaxili yük daşımaları aid edilir. Xatırladaq ki, qüvvədə olan qanuna görə, indiyə qədər avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının təmin olunması məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (qurum) tərəfindən marşrut şəbəkəsi müəyyənləşdirilib və dövlət sifarişi formalaşdırılırdı. Dəyişikliyə əsasən, bundan sonra avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının təmin olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən marşrut şəbəkəsi müəyyənləşdiriləcək və dövlət sifarişi formalaşdırılacaq.

Qanunun tətbiqi ilə bağlı fərmana əsasən, bu maddədə nəzərdə tutulmuş səlahiyyətləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində müntəzəm şəhərdaxili sərnişindaşıma ya münasibətdə isə, müvafiq olaraq, Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyəti başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri həyata keçirirdi. Qanuna edilən dəyişiklik bundan öncə Bakı Nəqliyyat Agentliyinin statusunun dəyişməsi, artıq "Nazirlər Kabineti yanında" bir orqan kimi fəaliyyət göstərməməsi ilə əlaqədardır. Oktyabrın 1-dən qüvvəyə minəcək yeni qanuna əsasən, ölkə ərazisində sərnişin və yük daşımaları sahəsində bir sıra yeniliklər tətbiq olunacaq.

Eyni zamanda, oktyabrın 1-dən etibarən taksi xidmətində də bir sıra yeniliklərin şahidi olacağıq. Bu baxımdan taksi kimi istifadə edilən nəqliyyat vasitələrində taksometrlərin quraşdırılması diqqəti daha çox cəlb edir. Xatırladaq ki, taksometr taksi minik avtomobilinin qət etdiyi məsafənin və boşdayanmanın müddətinin uçotunun aparılmasını, gediş haqqının məbləğinin hesablanmasını və barədə sərnişinin məlumatlandırılmasını təmin edən, taksi minik avtomobili üçün nəzərdə tutulmuş fiskal yaddaşlı xüsusi ölçü cihazı və ya proqram təminatı deməkdir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən bildirilib ki, "Avtomobil nəqliyyatı haqqında" qanunda edilən dəyişikliklər taksi şirkətlərinə və sürücülərə yeni imkanlar açır. Belə ki, dəyişikliklərə əsasən, minik avtomobillərində taksometrin quraşdırılması tələbi daha da sadələşdirilib. Əvvəllər qanunvericilikdə taksi minik avtomobillərində xüsusi ölçü cihazı kimi yalnız taksometrlərin quraşdırılması tələb kimi əks olunub. Oktyabrın 1-dən qüvvəyə minəcək dəyişiklik isə taksi sürücüləri üçün əlavə imkan yaradır. Belə ki, taksi minik avtomobillərində taksometr və ya bu cihazın funksiyasını yerinə yetirən proqram təminatı anlayışı qanunvericiliyə daxil edilib. Yəni, məsafəyə uyğun gedişhaqqını göstərən proqram təminatından istifadə edən taksi minik avtomobillərində taksometrin quraşdırılmasına ehtiyac yoxdur.

### Ekspert rəyi

**Eldəniz CƏFƏROV, avtomobil nəqliyyatı üzrə ekspert**



"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərə nəzər yetirdikdə məlum olur ki, burada qarşıya bir neçə əsas vəzifə qoyulub. Bunlardan ən əsası ölkədə müntəzəm və qeyri-müntəzəm sərnişindaşımanın, o cümlədən taksi nəqliyyatı ilə sərnişindaşımanın keyfiyyətinin yaxşılaşdırılması və təhlükəsizliyin təmin olunmasından ibarətdir. Həmçinin qanuna edilən dəyişikliklərdə taksi fəaliyyəti sahəsində çalışan sürücülərin hüquqlarının qorunması da diqqəti cəlb edir. Belə ki, dəyişikliklərə əsasən, avtomobillərdə taxoqrafların quraşdırılması da nəzərdə tutulub. Taxoqrafların quraşdırılması isə, əsasən, yük və sərnişindaşımada istifadə olunacaq avtomobillərdə həyata keçiriləcək. Bu da sürücülərin sutka ərzində qanunvericiliyə uyğun çalışması, onların nahar fasiləsinin təşkilinin həyata keçirilməsinə imkan yaradacaq. Bütün bunlar isə müvafiq qurumlar tərəfindən nəzarətdə saxlanılacaq.

Onu da qeyd edək ki, bugünə qədər Azərbaycanda taksi operatoru şirkəti anlayışı yox idi. Sadəcə, operator şirkətləri var idi. Onlar da taksi fəaliyyətini təşkil edirdilər. Yəni, taksi sürücüləri üçün müəyyən faiz müqabilində müştəri tapırdılar. İndən belə isə bu şirkətlər taksi operatoru şirkəti adlandırılacaq. Bu da onları taksi şirkəti kimi lazımi prosedurları həyata keçirməyə məcbur edəcək.

Bundan əlavə, taksilərdə xüsusi taksometrlərin quraşdırılması nəzərdə tutulur. Məlum olduğu kimi, bu gün taksi operatoru şirkətlərinin özlərinin mobil tətbiqləri var. Müəyyən proqram vasitəsilə tariflərin, kilometrajın hesablanması həyata keçirilir. İndən belə taksi fəaliyyəti ilə fərdi qaydada məşğul olan taksi sürücüləri üçün də taksometrlərin quraşdırılması məcburi olacaq. Hər hansı bir vətəndaş taksi fəaliyyəti ilə məşğul olmaq istəyirsə, vergisini ödəyib avtomobilinə sayğac, yəni taksometr quraşdırmaqla bu xidməti həyata keçirə biləcək.

Eyni zamanda, "Avtomobil nəqliyyatı haqqında" Qanuna edilən dəyişikliklərlə sərnişindaşıma ilə məşğul olan şirkətlər və fərdi şəxslər qarşısında tələblər sərtləşdirilir. Yeni qanun taksi şirkətlərinin və sürücülərin məsuliyyətini artıracaq. Burada da əsas məqsəd bu sahədə vətəndaşların təhlükəsizliyini təmin etmək və keyfiyyətli xidmətə nail olmaqdır. Bu prosedurlar həm lazımi sənədlərin alınmasına, tapılmasına, xüsusən də taksi xidmətinin Azərbaycan Respublikasında qanunauyğun təşkil edilməsinə imkan yaradacaq.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*



# Macarıstana qaz nəqli 1 milyard kubmetrə çatacaq

*Bu ölkənin Azərbaycanın "mavi yanacağ"ına tələbatı yüksəkdir*

**Yaxın vaxtlarda Azərbaycandan Macarıstana nəql olunan qazın həcmi təqribən 1 milyard kubmetrə çatdırılacaq. Bununla bağlı Budapeşt və Bakı arasında siyasi saziş imzalanıb.**

Bu barədə Macarıstanın xarici işlər naziri Peter Siyarto məlumat verib. Onun sözlərinə görə, 2023-cü ilin dördüncü rübündə Macarıstan Azərbaycandan 100 milyon kubmetr qaz alacaq. Nazir əlavə edib ki, Macarıstan Azərbaycanla əməkdaşlığı inkişaf etdirir və siyasi saziş qaz tədarükünün daha da artırılaraq bir milyard kubmetrə çatdırmağı nəzərdə tutur.

Peter Siyartonun bildirdiyinə görə, yeni sazişə əsasən, Macarıstan rezervuarlarında 50 miyon kubmetr Azərbaycan qazının saxlanmasına dair razılaşma da əldə edilib. O, həmçinin qeyd edib ki, Macarıstan hazırda qaz tədarükünün şaxələndirilməsi üzərində işləyir və Ekvadordan neft idxalı imkanlarını nəzərdən keçirir.

Xatırladaq ki, bundan əvvəl Macarıstanın MVM CEEnergy enerji şirkəti ilə Azərbaycanın neft-qaz şirkəti SOCAR arasında 2023-cü ilin sonuna qədər Macarıstan ildə 2 milyard kubmetrə qədər mümkün artımla 100 milyon kubmetr qaz tədarük edilməsi haqqında saziş imzalanıb.

*"Xalq qəzeti"*

# Buğda, düyü, qarğıdalı...

**Bu ilin 7 ayında ölkəmizə 578 min ton buğda idxal edilib. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə idxal edilən buğdanın dəyəri 164,7 milyon dollar təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin eyni dövründə Azərbaycana 154,6 milyon dollar dəərində 429,8 min ton buğda idxal edilib.**



İlin əvvəlindən düyü idxalında da artım qeydə alınıb. Belə ki, hesabat dövründə ölkəmizə dəyəri 34,9 milyon dollar olan 38,9 min ton düyü idxal edilib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 3,7 milyon dollar və 2,1 ton çoxdur.

Bundan əlavə, hesabat dövründə ölkəmizə 18,7 milyon dollarlıq 63 min ton qarğıdalı idxal olunub. Xatırladaq ki, ötən ilin eyni dövründə xaricdən alınan 39,6 min ton qarğıdalı üçün 14,6 milyon dollar xərclənib.

*"Xalq qəzeti"*

# Xaricə 9,4 milyard dollarlıq xam neft və neft məhsulları satılıb

**Yanvar–iyul aylarında Azərbaycandan 15 milyon 540,3 min ton xam neft və xam neft məhsulları ixrac edilib. Dövlət Gömrük Komitəsinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, ixrac edilən neft və neft məhsullarının dəyəri 9 milyard 444,8 milyon ABŞ dolları olub.**



2022-ci ilin müvafiq dövründə ölkəmizdən 16 milyon 414,9 min ton xam neft və neft məhsulları ixrac olunub. Həmin dövrdə ixracın dəyəri isə 12 milyard 397,7 milyon dollar təşkil edib.

Qeyd edək ki, cari ilin 7 ayında neft bitumunun ixracı kəskin azalaraq 1224 ton olub. İxrac edilən məhsulun dəyəri 330 min ABŞ dolları təşkil edib. Ötən ilin eyni dövründə isə Azərbaycandan 24,9 milyon ABŞ dolları dəyərində 88 min tona yaxın neft bitumu ixrac edilib.

# İqtisadiyyata kredit qoyuluşunun artımı 15 faizdən yuxarıdır

**2023-ci il avqust ayının 1-dək Azərbaycan iqtisadiyyatına 21 milyard 372 milyon manat kredit qoyulub. Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Bankın məlumatına görə, bu, cari ilin iyul ayının 1-nə olan göstərici ilə müqayisədə 0,4 faiz çoxdur.**



Bütövlükdə isə, əvvəlki ilin eyni dövrü ilə müqayisədə ölkə iqtisadiyyatına kredit qoyuluşları 15,6 faiz və ya 3 milyard 52 milyon manat artıb. Xatırladaq ki, 2022-ci ilin avqust ayının 1-nə kredit qoyuluşlarının həcmi 18 milyard 487,4 milyon manat olub.

*"Xalq qəzeti"*



# 45 min 975 ipoteka krediti

**İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

Fonddan aldığımız məlumata əsasən, ölkəmizdə indiyədək 45 min 975 ipoteka krediti verilib. Ümumilikdə, fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ isə 2 milyard 731 milyon 783 min 551 manat təşkil edib.

*"Xalq qəzeti"*

# Emal sənayesində yüksək artım

*Sahənin müəssisələrində 10,2 milyard manatlıq məhsul istehsal olunub*

**Bu ilin yanvar–iyul aylarında ölkəmizin emal sənayesində 10 milyard 243 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib.**



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 26 faiz, qida məhsullarının istehsalında 11,7 faiz, tütün məmulatlarının istehsalında isə 10 faiz artım müşahidə olunub. Bu sahələrin əsas məhsullarından üzüm şərabının istehsalı 60,7 faiz, şəkərli qənnadı məmulatlarının istehsalı 25,2 faiz, unlu qənnadı məmulatlarının istehsalı 23,5 faiz, siqaret istehsalı 20,1 faiz, meyvə-tərəvəz konservlərinin istehsalı isə 5 faiz artıb.

*"Xalq qəzeti"*



# Kənddə "bolluq" marafonu

## *Mövsüm məhsullarının yığımı davam edir*

**Bu gün respublikamızda ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəldilməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, həmçinin emalı sənayesinin formalaşdırılması dövlət siyasətində prioritet istiqamətlərindən birini təşkil edir.**

Son illər ərzində kənd təsərrüfatının bitkiçilik sahəsi üzrə artımda həm intensiv, həm də ekstensiv amillər təmin edilir, heyvandarlıq sahəsində artım isə əsasən, intensiv inkişafa əsaslanır. Dövlət Statistika Komitəsinin son məlumatında diqqətə çatdırılan göstəricilərdən də bu, aydın nəzərə çarpır. Belə ki, məlumatda payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulan 930 min hektar sahənin 910,2 min hektarının və yaxud 97,9 faizinin biçilərək məhsulunun yığıldığı bildirilir. Həmçinin sahələrdən 2 milyon 915,3 min ton məhsul toplanıldığı, məhsuldarlığın 32 sentnerə bərabər olduğu qeyd edilir. Məhsulun 1 milyon 828,6 min tonunu və yaxud 62,7 faizini buğda, 1 milyon 064,1 min tonunu (36,5 faizini) arpa, 22,6 min tonunu (0,8 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil edir.

Respublikanın 21 rayonunda dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin biçini tam başa çatıb. 31 rayonda və Naxçıvan MR-da nəzərdə tutulan sahənin 90 faizindən çoxu biçilib. Ən yüksək məhsuldarlıq Hacıqabul (1 hektardan 51,8 sentner), Ağcabədi (müvafiq olaraq 45,3 sentner), Bərdə (44,8 sentner), Tərtər (43,5 sentner), Sabirabad (42,9 sentner), Salyan (41,9 sentner), Ağdam (41,3 sentner), Saatlı (40,9 sentner), İmişli (39,6 sentner), Tovuz (39,6 sentner) və Samux (39,5 sentner) rayonlarında olub.

Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı Cəlilabad (218,6 min ton), Kürdəmir (148,4 min ton), Ağcabədi (120,7 min ton), Ağsu (118 min ton), Hacıqabul (107 min ton), Sabirabad (102,9 min ton), Biləsuvar (96,8 min ton) və İsmayıllı (93 min ton) rayonlarında müşahidə olunub.

Statistika Komitəsinin məlumatında daha sonra payızlıq əkinlərin vegetasiya dövründə havaların əlverişsiz keçməsinin kənd təsərrüfatına mənfi təsir göstərdiyi bildirilib. Belə ki, keçən ilin payızında dən və yaşıl yem üçün əkilən 1 milyon 88 min hektar sahədən yalnız 901 min hektarı (82,8 faiz, əvvəlki ildə 89,3 faiz) cari ilin yaz əkini dövrünün sonunadək salamat qalıb.

Ölkə üzrə əkin sahələrinin 958,9 min hektarını və yaxud 62 faizini dənli və dənli paxlalı bitkilərin, 114 min hektarını (7,4 faiz) texniki bitkilərin, 127,9 min hektarını (8,3 faiz) kartof, tərəvəz və bostan bitkilərinin, 345,9 min hektarını isə (22,3 faiz) yemlik bitkilərin əkin sahələri təşkil edib.

Qeyd edək ki, son illər ərzində ölkədə kənd təsərrüfatı göstəricilərinin daha da yüksəldilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılıb. Məsələn, bu yaxınlarda fermerlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində daha bir addım atılıb. "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC tərəfindən məhsul yığımı ərəfəsində şəkər çuğundurunun fermerlərdən tədarük qiymətinin artırılması barədə qərar qəbul edilib.

Kənd Təsərrüfatı Nazirliyindən bildirilib ki, həmin qərara əsasən, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC tərəfindən 2023–2024-cü təsərrüfat ilində qışlıq və yazlıq mövsüm üzrə qəbul olunacaq şəkər çuğundurunun alış qiymətləri ötən illə müqayisədə hər bir ton üçün şəkərlilik faizinə uyğun olaraq 4 manat artırılıb. Bununla da şəkər çuğundurunun 1 tonunun alış qiyməti orta hesabla 12 faiz şəkərliliklə 65 manatdan 69 manata, 13 faiz şəkərliliklə 68 manatdan 72 manata, 14 faiz şəkərliliklə 73 manatdan 77 manata, 15 faiz şəkərliliklə 77 manatdan 81 manata və 16 faiz şəkərliliklə 81 manatdan 85 manata qaldırılıb. Xatırladaq ki, 2023-cü təsərrüfat ilində respublikamızın 22 rayonunda 4 min 535 hektar şəkər çuğunduru əkilib.

Respublikada fermerlərə təkrar əkin subsidiyası verilməsi də stimullaşdırıcı tədbirlər sırasında xüsusi yer tutur. Kənd Təsərrüfatı Nazirliyinin bir neçə gün bundan əvvəl bu barədə verdiyi qərar qeyd edilən fikrin bariz ifadəsidir. Yeri gəlmişkən, həmin qərara əsasən, 2023-cü ildə əsas əkinlərdən sonra təkrar əkin olaraq çəltik, qarğıdalı, kartof, günəbaxan, darı, sorqo, soya əkmiş fermer hər hektara görə 100 manat subsidiya alacaq. Təkrar əkin üçün müraciət etmək istəyən fermerin mütləq bu il ilk əkin aparması barədə bəyanı Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) olmalıdır. Eyni zamanda, cari il torpaq analizi vermiş fermerlərdən təkrar əkin bəyanında bu sənəd tələb olunmayacaq. Müraciətlər toplandıqca monitorinqlər aparılacaq və sentyabrdan başlayaraq təkrar əkin subsidiyalarının ödənişi həyata keçiriləcək. Təkrar əkin subsidiyası da "Fermer kartı"na köçürüləcək. Fermer vəsaitin 25 faizini nağdlaşdıraraq istifadə edəcək, 75 faiz vəsaitdən isə nağdlaşdırmadan toxum, gübrə, pestisid alacaq.

Ümumiyyətlə, kənd təsərrüfatı məhsulları istehsalçılarının bu kimi dövlət qayğısı ilə əhatə olunması bütün əsas istiqamətlərdə irəliləyişlərə yol açıb. Son 10 il ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8 faiz (o cümlədən bitkiçilik məhsulları istehsalı 53 faiz, heyvandarlıq məhsulları istehsalı 42,5 faiz) artıb. Bu dövr ərzində kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcmi təqribən 26,9 faiz artıb ki, bu da xüsusilə ilkin kənd təsərrüfatı məhsullarının ixrac həcminin bir neçə dəfə çoxalması hesabına olub.

Bütün bu tədbirlərin nəticəsidir ki, son dövrlər qlobal ərzaq bazarında yaşanan böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycanın idxaldan asılı olduğu məhsullar üzrə təminatında heç bir problem nəzərə çarpmır. Bununla yanaşı, ərzaq qiymətlərində baş verən bahalaşmanın mənfi təsirlərinin qismən də olsa kompensasiyası məqsədilə ölkəyə idxal olunan bir sıra ərzaq məhsullarının və xammalların gömrük rüsumlarından və ƏDV-dən azad olunması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilir.

Bütün bunların nəticəsidir ki, əsas ərzaq məhsulları üzrə yerli istehsal potensialının gücləndirilməsi hesabına özünütəminetmə səviyyəsi əksər məhsullar üzrə yaxşılaşıb. Hazırda özünütəminetmə səviyyəsi meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə 100 faiz, ət və süd məhsulları üzrə ümumən 85-86 faiz, kartof üzrə təqribən 90 faiz, buğda üzrə təqribən 60 faiz təşkil edir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

**Taxıl tədarükü iqtisadiyyatımızın ən önəmli sahələrindən biridir. Bu məhsul əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Odur ki, taxılçılığın inkişafı daim dövlətimizin diqqət mərkəzində saxlanılır, taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçısı, həmçinin hökumət tərəfindən mühüm qərarlar qəbul edilir. Görülən tədbirlər isə öz nəticəsini verir, hər il bol məhsul yığılır.**

# Ağdam torpağı yenə bol taxıl yetirib



Artıq Ağdam rayonunun fermerləri və torpaq mülkiyyətçiləri taxıl biçinini başa çatdırıblar. Onların vaxtında kənd təsərrüfatı texnikalarını seçməsi, gübrə və pestisidlər əldə etməsi, taxıl istehsalının artırılmasında məhsuldar, yerli iqlim şəraitinə və xəstəliklərə davamlı, yüksək reproduksiyalı taxıl toxumlarına üstünlük vermələri yüksək məhsuldarlığa səbəb olub. Bundan başqa, müasir suvarma sistemindən istifadə olunması da təsirsiz ötüşməyib.

Rayon Statistika İdarəsinin məlumatına əsasən, 10 min 354 hektar taxıl sahəsindən 42 min 775 ton məhsul əldə edilib. Məhsulun 34 min 695 tonu buğda, 8 min 80 tonu arpadır. Hər hektara məhsuldarlıq orta hesabla 41,3 sentner, o cümlədən buğda sahələrində 41,9 sentner, arpa sahələrində isə 39 sentner məhsul əldə ediblər. Hər hektarın orta məhsuldarlığı republika göstəricisindən 9, 3 sentner çoxdur.

Rayonda məhsul yığımı ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqi də uğurla həyata keçirilir, yüksək məhsuldarlıq əldə etmək üçün torpağa lazımi aqrotexniki qulluq göstərilir. Avqustun 1-dək 3 min 108 hektar sahədə şum qaldıraraq 241 hektarda təkrar əkin işləri aparılıb.

Təkrar əkinlərin 100,5 hektarı silos üçün qarğıdalı, 3 hektarı kələm, 5 hektarı xiyar, 11 hektarı pomidor, 77 hektarı sorqo (süpürgə), 44,5 hektarı darıdır. Rayonda payızlıq dənlilərin səpilməsi üçün hazırlıq işləri də həyata keçirilir.

Rayon Statistika İdarəsinin məlumatına əsasən, cari ildə rayonda 24 min 336 ton müxtəlif növ tərəvəz istehsal olunub. İstehsal olunan tərəvəzin 21 min 418 tonunu baş soğan təşkil edib. Bundan başqa, sahələrdən 3 min 42 ton kartof, 200 tondan çox müxtəlif meyvə və giləmeyvə toplanılıb. Tərəvəz üzrə orta məhsuldarlıq 207,6 sentner, kartof üzrə 169,9 sentner təşkil edib.

**Pünhan ƏFƏNDİYEV,**
**"Xalq qəzeti"**

# Pakistandan gətirilən pambıq toxumu əkiləcək

**Növbəti ilin pambıq əkinləri üçün Pakistandan gətirilən "Super Cotton" pambıq sortundan istifadə olunacaq.**



Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, bu sort bütün bioloji, məhsuldarlıq və texniki göstəricilərinə görə digər sortlardan üstünlüyü ilə fərqlənir.

Artıq "Super Cotton" sort toxumları becərilmə üçün bir sıra fermerlərə və pambıqçılıq ilə məşğul olan müəssisələrə paylanılıb. Təcrübə əkinlərində orta məhsuldarlığın 85–90 s/ha olması gözlənilir.

Bu sorta olan böyük marağı nəzərə alaraq fermerlər tərəfindən gələn ilin əkinləri üçün toxum sifarişləri verilib.

# Aqrar Sığorta Fondu kəndlinin dayağıdır

## *Fermerlərə 7 ayda 46 milyon manatadək güzəştli kredit verilib*



**7 ayda Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən 4060 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib. Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına əsasən, cari ilin ilk yeddi ayında aqrar sektorda fəaliyyət göstərən 2302 fiziki və hüquqi şəxsə 45,8 milyon manat məbləğində güzəştli kredit verilib. Ötən ilin müvafiq dövründə isə bu cür güzəşt 147 nəfərə şamil edilib. Onların aldıqları güzəştli kreditin məbləği isə 9,9 milyon manat olub.**

Verilən kreditlərin 34,5 milyon manatı texnika və avadanlıq təyinatlı, 250 min manatı güzəştli, 11 milyon manatı isə mikrokreditlərdir.

Bununla yanaşı, cari ilin yanvar-iyul ayları ərzində AKİA tərəfindən 1809 baş damazlıq heyvanın (933 baş iribuynuzlu, 876 baş xırdabuynuzlu) alışına 3,2 milyon manat, habelə kənd təsərrüfatı texnikası və avadanlıqlarının alışı üçün 49,6 milyon manat məbləğində güzəştli kredit ayrılıb.

# Cəlilabad çiyələyi dünya bazarında

## *Məhsula tələbat artır*

**Cəlilabadda aqrar sektorda müasir texnologiyaların tətbiqi getdikcə genişlənir. Son bir neçə ildə çiyələk becərilməsində innovasiyaların tətbiqi məhsuldarlığın artmasına, su və torpaq resurslarından daha səmərəli istifadə olunmasına, istehsalda maya dəyərinin aşağı düşməsinə müsbət təsir göstərir.**



Rayonda yerli sahibkarların çiyələkçiliyin inkişafına marağı ilbəil artır. Təxminən, ilin 9 ayı açıq əkin sahələrində becərilən bu məhsul artıq payız fəslindən istixanalarda yetişdirilir. Hazırda rayonda yığımı davam etdirilən mühüm gəlirli sahə kimi dəyərləndirilən çiyələk sahələri 510 hektara çatdırılıb.

Cəlilabad Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) məlumatına görə, təkcə ötən il çiyələk sahələrindən 15 min 280 ton keyfiyyətli məhsul tədarük olunub. Məhsulun yerli bazarla yanaşı, 12 min tona yaxını dünya bazarlarına daşınıb. Bununla yanaşı, ərəb ölkələrindən, İraq, Qazaxıstan və Belarusdan məhsulun ixracı ilə bağlı sahibkarlara sifarişlər gəlib. Ötən il istehsalçılar çiyələk satışından 6,8 milyon manat xalis gəlir əldə ediblər.

Xatırladaq ki, istehsalçılar yaz mövsümü başlayandan indiyədək sahələrdən 12 min 365 ton məhsul toplayıblar, bunun 10 min 900 tonu xaricə ixrac olunub.

**"Xalq qəzeti"**

# Fermerlər Rusiyanın kənd təsərrüfatı texnikasını sınaqdan keçirəcəklər

**Ağstafa rayonunda avqustun 25–26-da "Rusiya–Azərbaycan Tarla Günü – 2023" ixtisaslaşdırılmış sərgisi keçiriləcək. Operatoru "EXPOCENTRE" Səhmdar Cəmiyyəti olan sərgi "Rosspetsmash" Assosiasiyasının fəal dəstəyi ilə qonşu ölkənin Sənaye və Ticarət Nazirliyi tərəfindən təşkil olunacaq.**



Rusiyanın aparıcı kənd təsərrüfatı maşınqayırması müəssisələri ikinci dəfədir ki, ən yaxşı texnika və avadanlıqlarını Azərbaycan fermerlərinə göstərmək və sınaqdan keçirmək imkanı yaratmaq məqsədilə Azərbaycana gətirəcək.

"Rusiya–Azərbaycan Tarla Günü" yeni formatda – Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə "AqroİnnoFest" festivalı ilə birgə reallaşacaq. Tədbir Ağstafa aqrar-sənaye kompleksinin ərazisində keçiriləcək.

Sərgini Rusiya ixtisaslaşdırılmış texnika bazarının liderləri olan 14 müəssisə – Rostselmaş, Sankt-Peterburq traktor, Cənubi Ural Tərəzi və Voronej aqromaş zavodları, Peqas-Aqro, Melinvest, ALMAZ, Salskselmaş, Texnostal, Aqromexanika, AqroPostavka müəssisələri təmsil edəcək.

Rusiyanın ixtisaslaşdırılmış texnika sərgisi 800 kvadratmetrdən çox ərazini əhatə edəcək. Onu ziyarət etməklə azərbaycanlı fermerlər, aqrar sektor holdinqləri, kənd təsərrüfatı texnikası üzrə dilerlər qonşu ölkə istehsalı olan taxılyığan kombaynlar, kotanlar, dırmıqlar, çiləyici və səpələyicilər, kultivatorlar, taxıltəmizləyən separatorlar və digər texnikanın həm yeni, həm də artıq tanınan modelləri ilə tanış ola biləcəklər.

Rusiyanın kombaynqayırma sahəsində əvəzsiz lider olan "Rostselmaş" ziyarətçilərə "Power Stream 4m" taxılbiçənli "NOVA 340" kombaynını nümayiş etdirəcək. Bu müəssisənin brendinin məhsulları dünyanın 40-dan çox ölkəsində tanınır və indi Azərbaycanın kənd təsərrüfatı istehsalçıları həmin məhsulları öyrənə və satış qiyməti ilə maraqlana biləcəklər. Stenddə kombaynla yanaşı, bir neçə ildir ki, respublikamızın tarlalarında uğurla fəaliyyət göstərən "Tukan" kipbağlayan presləyici-yığıcı da nümayiş etdiriləcək.

ALMAZ Ticarət evi ("Altay maşınqayırma zavodları" Şirkətlər Qrupunun bir hissəsi) sərgidə özünün bestsellerini – quraşdırılmış reversiv "PERESVET PON-4+1" kotanını nümayiş etdirəcək. Azərbaycan fermerləri ALMAZ stendində kotanla yanaşı, kənd təsərrüfatı texnikasının təmiri və texniki xidməti üçün lazım olan bütün ehtiyat hissələrini də seçə biləcəklər.

İlk dəfə olaraq Azərbaycan bazarında Samara vilayətinin "Pegas-Agro" şirkətinin istehsalı olan "TUMAN-2" özügedən çiləyici-səpələyici qurğu təqdim olunacaq. Kənd təsərrüfatı texnikasının "TUMAN-2" xətti çox modulluluq, universallıq, sahəyə ehtiyatlı münasibət və nəticədə yüksək məhsuldarlıq və xərclərini tez bir zamanda (orta hesabla 1,5-2 mövsümə) çıxara bilmək kimi fərqləndirici xüsusiyyətlərə sahibdir.

Penza vilayətinin "Aqromexanika" şirkəti ekspozisiyanın qonaqlarına Azərbaycan fermerlərinin bütün aqroiqlim zonalarında və bütün növ torpaqlarda, o cümlədən külləş, ağır torpaqlar və zəif hazırlanmış kənd təsərrüfatı fonlarında istifadə edə biləcəkləri flaqman məhsullarını – "KPU-6m" qoşqulu universal kultivatoru və "BDM-3x2PK" yarımqoşqulu diskli dırmığı nümayiş etdirəcək.

Nijni Novqorodun "SC Melinvest" şirkəti yerli sahibkarlara taxılın təmizlənməsi, emalı və saxlanması üçün geniş çeşiddə avadanlıq təqdim edəcək.

Beləliklə, "Rusiya–Azərbaycan Tarla Günü – 2023" sərgisi Rusiya ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün mühüm hadisədir.

**"Xalq qəzeti"**

# İrəvan və Naxçıvan xanlarının qohumluq tarixçəsi

**İrəvan xanlığının sonuncu hakimləri olmuş Dəvəli Qacarlarını Naxçıvanın Kəngərli xanları ilə yaxın qohumluq telləri bağlamışdır. Naxçıvan tarixinin XIX yüzilliyin ikinci yarısından üzübəri açılmamış səhifələrini araşdırarkən İrəvan xanlarının varislərindən olan Abbasqulu xan İrəvanskinin adına tez-tez rast gəlirik.**



Abbasqulu xan həyatı Naxçıvanla sıx bağlı keçmişdir. Onun həyat yoldaşlarından ikisi Naxçıvandan olmuşdur: general İsmayıl xanın qızı Tərlan xanım və general-mayor II Kalbalı xan Naxçıvanskinin qızı Zərrintac bəyim. Abbasqulu xanın ikinci həyat yoldaşı Tərlan xanımdan 7 övladı doğulmuşdur: Kərim xan, Əli xan, Həsən xan, Xanlar xan, Fəxrəntac xanım, Gövhərtac xanım və Tacı xanım. Təqdim edilən şəkildə Abbasqulu xandan sağda oturan onun qızı Gövhərtac xanımdır, qucağındakı uşaq oğlu Əziz xandır. İkinci cərgədə solda ayaq üstdə dayanan ikinci şəxs onun həyat yoldaşı Bəhram xan Naxçıvanskidir.

Bəhram xan 1872-ci ildə Naxçıvan şəhərində İsmayıl xanın oğlu Aman xanın ailəsində anadan olmuşdur. Anası Xanbikə Xurşidbanu Natəvanın qızıdır. Uşaqlıq illəri 1886-cı ildən etibarən Şuşada keçmişdir. 1899–1904-cü illərdə Naxçıvan şəhər polis pristavının köməkçisi işləmişdir. 1898–1903-cü illərdə Naxçıvan şəhərindəki müsəlman ibtidai məktəbinin fəxri nəzarətçisi də olmuşdur. Bəhram xanın kollej, katib, asessor, titulyar müşavir, yəni saray müşaviri olması haqda da məlumat vardır. O, 1906–1909-cu illərdə isə Naxçıvan şəhərinin starostası olmuşdur.

1919-cu ilin yanvar ayından Naxçıvan Araz-Türk Respublikasının xarici işlər naziri, 1919-cu ilin avqustundan Naxçıvan şəhərində yerləşən Cənub-Qərbi Azərbaycan general-qubernatorunun köməkçisi işləyən Bəhram xan həmin ilin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinin Lənkəranda tam səlahiyyətli nümayəndəsi təyin edilmişdir. 1920-ci ildən İrana mühacirətə gedən Bəhram xan Səlmasda və Təbrizdə yaşamışdır. O, Culfa–Təbriz dəmir yolunda yoxlayıcı işləməklə bərabər, həm də "Müstəqil Qafqaz" təşkilatının üzvü olmuşdur.

Fotoşəkildə ikinci cərgədə Bəhram xandan sağda ayaq üstdə duran Abbasqulu xanın oğlu Həsən xandır. Onun qarşısında oturan qadın isə həyat yoldaşı Nuraleyin xanımdır. Rus hərbi şərqşünası K.N.Smirnov yazır ki, Abbasqulu xanın oğlu Həsən xan 1934-cü ildə İrəvanda yaşamışdır. Amma Həsən xanın oğul nəvəsi Turhan Turqutun dediyinə görə, onun ata babası Həsən xan 1927-ci ildə İrana, sonra isə Türkiyəyə mühacirət etmişdir.

Yeri gəlmişkən deyək ki, bu tarixi fotoşəklin doğru-dürüst araşdırılmasına Turhan Turqut köməklik göstərmişdir. Onun dediyinə görə, Həsən xan 1898-ci ildə Bəhmən Mirzə Qacarın qızlarından Nuraleyin xanımla ailə qurmuşdur. Bu nikahdan onların 5 uşaqları olmuşdur: Hüseyn xan, Fərid xan, Ruhsarə, Sami və Adilə xanım. Həsən xanın böyük oğlu Hüseyn xan 1900-cü ilin noyabr ayında İrəvan şəhərində doğulmuşdur. O, İrəvan gimnaziyanı bitirmişdir. 1917-ci ildə Rusiyada çarizmin yıxılmasından və bolşeviklərin hakimiyyəti silahlı yolla ələ keçirməsindən sonra erməni daşnaklarının terrorundan yaxa qurtarmaq üçün Həsən xan ailəlikcə Naxçıvana köçmüşdür. Bir müddət Naxçıvanın müdafiəsində döyüşən Həsən xanın oğlu Hüseyn xan sonralar Türkiyəyə getmiş və Osmanlı ordusunda zabit kimi hərbi xidmətə başlamışdır. Türkiyə ordusunun apardığı döyüşlərdə fərqlənən Hüseyn xan "Dəmir Hilal" nişanı ilə təltif edilmişdir. Sonrakı döyüşlərdə şücaətinə görə onu "İstiqlal" medalı ilə təltif etmişlər.

Müharibə qurtardıqdan sonra Ankarada mühafizə alayında hərbi xidmətini davam etdirmişdir. 1930-cu ildə hava qüvvələrində hərbi xidmətə başlayan Hüseyn xan Fransaya ikiilliyə ezam olunur. 1932-ci ildən 1946-cı ilədək hərbçi təyyarəçilərin yetişdirilməsində əlindən gələni əsirgəmir. Türkiyənin hava qüvvələrində çox sevilən, əfsanəvi bir zabitdən çox, həm də dərin zəkası ilə tanınır. 1960-cı ildə ona general hərbi rütbəsi verilir. Sonralar istefaya çıxan Hüseyn xan 1971-ci ildə Ankarada vəfat etmişdir.

Hüseyn xan 1936-cı ildə Ləman adlı qızla ailə qurmuş, Nur və Turhan adlı iki uşağı olmuşdur. Onlardan biri –1940-cı ildə doğulan Nur Ümit Arik adlı diplomatla ailə qurmuşdur. Digəri Turhan Turqutdur ki, 1946-cı ilin iyul ayında Türkiyənin İzmir şəhərində doğulmuş və Ankara Universitetinin hüquq fakültəsini bitirmişdir.

Fotoşəkildə ön cərgədə soldan birinci Abbasqulu xanın oğlu Xanlar xandır, qucağındakı isə oğludur. Abbasqulu xanın qarşısında oturan isə sonbeşik qızı Tacı xanımdır .O, Maku sərdarının nəvəsi Əlixanla ailə qurmuşdur. Əlixanın anası isə general-mayor II Kalbalı xanın qızı Şahbəyimdir.

Abbasqulu xandan solda oturan qızı Fəxrəntac xanımdır. Arxa cərgədə solda ayaq üstə dayanan Rəhim xan Naxçıvanski balaca qızı Xurşidlə, ondan sağdakı isə Fəxrəntac xanımın həyat yoldaşı Cəfərqulu xan Naxçıvanskidir. Fəxrəntac xanımın yanındakı Cəfərqulu xanın ikinci həyat yoldaşıdır. Fəxrəntac xanımın qarşısında oturanlar onun qızı Nazlıbəyim, oğlu III Kalbalı xandır.

Abbasqulu xanın böyük oğlu Həsən xan Türkiyənin Əskişəhərində 1956-cı ilədək yaşamış və orada da vəfat etmişdir. Onlar Türkiyədə Turqut familiyasını qəbul etmişlər. Turhan Turqutun dediyinə görə, babası Həsən xan deyirmiş ki, biz Turqutlar soyundanıq. Yəqin ki, Turqutlar Qacarların Türkiyədə yaşayan bir qolu olmuşdur.

Abbasqulu xan İrəvanski 1905-ci ildə İrəvanda və Naxçıvanda xalqı başına toplayaraq erməni daşnaklarına qarşı vuruşmuş, müsəlmanların İrəvandan köçürülməsinin qarşısını almışdır. Onun birinci həyat yoldaşı Bilqeyis xanımdan 3 övladı – 2 oğlu və 1 qızı olmuşdur. Böyük oğlu Əli xanı evdə Ağa xan çağırıblar. Əli xan məşhur hərbçi kimi tanınmış, 1918-ci ildə Naxçıvanın müdafiəsində vuruşmuş, sonra qardaşı Kərim xanla Kabardaya getmişdir. Onun Bülbül xanım adlı qızı olmuş və bir müddət Naxçıvanda yaşamışdır.

Abbasqulu xanın ikinci oğlu Böyük xanın (əsl adı Məmmədqulu xandır) arvadı Tovuz xanım Naxçıvanskaya İsmayıl xanın oğlu Bəhman xanın qızıdır. Tovuz xanımın anası Çimnaz xanım general-mayor II Kalbalı xanın qızıdır. Məmmədqulu xanla Tovuz xanımın 7 övladı olmuşdur: Nazxanım, Yəməntac xanım, Mehdiqulu xan, Əfşan xanım, Allahyar xan, Davud xan və Nəcəf xan.

Allahyar xan 1919-cu ildə Naxçıvanda erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşdur. Sovet hakimiyyəti illərində o, Leninqradda (indiki Sankt-Peterburqda) Tibb İnstitutunda oxumuşdur. 1937-ci ildə repressiyanın qurbanı olmuşdur. Onun digər bacı-qardaşları haqqında əvvəlki yazılarımızda təfsilatı ilə söhbət açmışıq.

Hər dəfə Naxçıvanın mərkəzində Cəmşid xan Naxçıvanskinin ev-muzeyinə gələndə bu tarixi fotoşəklin qarşısında dayanıram. Bir an ərzində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın azadlığı, müstəqilliyi uğrunda qəhrəmanlıqla döyüşmüş mərd oğulları xəyalən xatırlayıram.

Birdən müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müdrik kəlamı qulaqlarımda səslənir: "İrəvan xanlığı var, Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma, həqiqətən, İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var".

Yuxarıda haqqında söhbət açdığımız tarixi fotoşəkil də İrəvan və Naxçıvan xanlarının bir-birlərinə çox yaxın və sədaqətli olduqlarını təsdiqləyən orijinal arxiv sənədidir. Fotoşəklin arxasında çəkildiyi tarix rusca qeyd edilmişdir: Naxçıvan, 1906.

**Musa QULİYEV,**
**AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru**

**Qərbi Azərbaycan İcması bugünlərdə Beynəlxalq Qırmızı Xaç Komitəsinə ünvanladığı müraciətində Ermənistanın "humanitar böhran" şousuna alət olmuş bu qurumu Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında təhlükəsiz gediş-gəlişi təmin etməyə çağırıb.**

## Beynəlxalq Qırmızı Xaç Komitəsi Naxçıvanın blokadasına niyə göz yumur?



Sənəddə bildirilir ki, 1987–1991-ci illərdə Ermənistandan azərbaycanlıların hamısının qovulması, 1991–1994-cü illərdə Azərbaycan ərazilərinin 20 faizinin işğalı, azərbaycanlıların işğal edilmiş torpaqlardan qovulması, işğal altındakı bütün Azərbaycan yaşayış məntəqələrinin dağıdılması və mina döşəməklə o torpaqların yaşayış üçün yararsız hala salınmasını ehtiva edən bu mənfur siyasətin ən ağır təzahürlərindən biri də Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı davam edən blokadadır.

Müraciətdə daha sonra bildirilib: "Ermənistanın bu blokadanı tətbiq etməkdə məqsədi muxtar respublikanı ələ keçirmək idi. Naxçıvan sakinlərinin qəhrəmancasına müqaviməti qarşısında muxtar respublikanı hərbi yolla işğal edə bilməyəcəyini anlayan Ermənistan, əhalini məhrumiyyətlərə düçar etməklə Naxçıvanı tərk etməyə məcbur etmək üçün bu mənfur blokadanı tətbiq edib. Azərbaycan Türkiyə və İran üzərindən alternativ tranzit marşrutları təşkil edilməsini 2005-ci ildə tamamlayana qədər, sərt iqlimə malik Naxçıvan əhalisi şiddətli soyuqdan əziyyət çəkmiş, qida və tibbi vasitələr çatışmazlığı ilə üzləşmişdi".

Müraciətdə Ermənistanın beynəlxalq hüquqda, o cümlədən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunmuş, Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz tranziti təmin etməyə dair konkret öhdəliyini yerinə yetirməkdən boyun qaçırdığı vurğulanır və Beynəlxalq Qırmızı Xaç Komitəsinin bu ədalətsizliyə öz münasibətini bildirməsinə çağırış səslənir: "Biz Ermənistandan beynəlxalq hüquqa və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunmuş öhdəliyinə uyğun olaraq Zəngəzur dəhlizinin fəaliyyətə başlamasını təmin etməyi və Naxçıvan Muxtar Respublikasına qarşı davam etdirdiyi qeyri-insani blokadanı aradan qaldırmağı tələb edirik. Beynəlxalq Qırmızı Xaç Komitəsini (BQXK) Ermənistanın ərazisi ilə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında təhlükəsiz gediş-gəlişin həyata keçirilməsini təmin etməyə çağırırıq".

**"Xalq qəzeti"**

### HANI?

Ellər dağa gedir, yaylağa çıxır,
Bəs mənim gülşənli yaylağım hanı?
Bir zaman döşündə at süzdürdüyüm,
Dərəli-təpəli oylağım hanı?

Göynərəm qəlbimi həsrət deşəndə,
Mərd gülməz qardaşı oda düşəndə.
Ürəyim qan olur yada düşəndə,
Aşıqlı, mağarlı o çağım hanı?

Ulu oğuzlardan yadigar qalan,
Dar gündə qolunu boynuma salan...
Tüstüsü gözümün məlhəmi olan
Dədə-baba yurdum, ocağım hanı?

Görəsən nə imiş taledən payım,
Tapdandı qismətim, hər haqqı sayım.
Hanı "Tərsə çayım", "Əyricə" çayım,
Havam, suyum hanı, bulağım hanı?

Eldar, həsrət qaldım şah ocağına,
Anamın yanmayan son çırağına.
El gəlib çıxardı Göyçə dağına,
Hanı Göyçə adlı torpağım, hanı?

### ALLAH AMANATI

Hicran günü əsib getdim,
Haqsızlıqdan bezib getdim.
Bulud, səndən küsüb getdim,
Yellər, Allah amanatı!

Belə uçuş, pərən olmaz,
Bu karvanı sürən olmaz,
Sizi mənsiz dərən olmaz,
Güllər, Allah amanatı!



Dalğaları incik düşən,
Qırçınları itkin düşən,
Sonaları perik düşən,
Göllər, Allah amanatı!

Dərdi qovdum dərd ölüncə,
Düşdüm qürbətdə bir küncə.
Bəlkə, gəldim, mən gəlincə,
Çöllər, Allah amanatı!

Od qılıncın sıyırdılar,
Məni sürgün buyurdular.
Ayrılmazdım, ayırdılar,
Yollar, Allah amanatı.

Min illərlə mənli olan,
Dağda-daşda cığır salan...
Soyadımla yaşa dolan,
İllər, Allah amanatı!

Tüstüm gedib, külüm qalıb,
Məndən ötrü zülüm qalıb,
Qəbir-qəbir elim qalıb,
Ellər, Allah amanatı!

**Eldar İSMAYIL**

# Qərbi Azərbaycan faciələrinin xronologiyası

**Qərbi Azərbaycanda soydaşlarımızın qədimdən-qədim məskunluğu, bu əzəli türk yurdunun düşmən dairələrin qəsdləri ilə zaman-zaman erməniləşdirilməsi və XX əsrin əvvəllərində burada Ermənistan adlı oyuncaq dövlət yaradılması barədə silsilə tədqiqatların müəllifi, AMEA Tarix İnstitutunun baş direktotu, professor Kərim Şükürov bu başıbəlalı torpağı Rusiyanın işğal etməsi ilə başlayan faciələrinin ayrıca xronologiyasını da tərtib etmişdir. Həmin materialın davamını oxucularımıza təqdim edirik.**

**(əvvəli qəzetimizin 28 iyul 2023-cü il tarixli sayında)**

**1836, 11 mart.** Erməni-qriqorian kilsəsi haqqında Əsasnamənin qəbulu. Çar hökuməti tərəfindən erməni kilsəsinə mühüm hüquqlar verilir. Təsadüfi deyil ki, bu Əsasnamə Zaqafqaziyanın erməni kilsəsi kimi deyil, ümumiyyətlə, erməni-qriqorian kilsəsi kimi qeyd edilməklə, dünya üzrə ermənilərin birləşdirilməsini ifadə edirdi. Əsasnamə ilə Rusiya hüdudlarında 6 yeparxiya müəyyən edilirdi. Onların içərisində Azərbaycan ərazilərini əhatə edən İrəvan, Qarabağ və Şirvan yeparxiyaları da var idi. Erməni-qriqorian kilsəsi bu Əsasnamədən istifadə edərək, həm siyasi, həm də maddi baxımdan güclü mövqeyə malik olur. Çar hökuməti tərəfindən 1903-cü ildə bu mövqenin zəiflədilməsinə cəhd edilsə də, uğursuz olur. Əsasnamədən əlavə, çar hökuməti digər vasitələr ilə də erməni-qriqorian kilsəsinin nüfuzunu artırmağa çalışırdı. I Nikolay Qafqaz səfəri zamanı erməni katalikosu ilə görüşmüşdür.

**1837, 20 sentyabr–26 oktyabr.** İmperator I Nikolayın Qafqaz səfəri. İmperator oktyabrın 4-də Gümrüyə gəlir. Müqəddəs Aleksandr adına kilsənin bünövrəsini qoyur və şəhəri Aleksandropol adlandırmağa icazə verir. Çar oktyabrın 5-də Sərdarabada, oradan Eçmiədzinə, sonra İrəvana gəlir. İrəvanda Sərdar sarayında Qafqazdakı rus qoşunlarının baş komandanı baron Rozen, hərbi və mülki administrasiya nümayəndələrinin də qatıldığı nahar vaxtı çox maraqlı hadisə baş verir. Sarayın yanına yığılmış kütlə içərisindən qışqırıq səsləri gəlir: "Ərzimiz var, qoymurlar".

Bu səfərə məqalə həsr etmiş A.Berjenin qeydə aldığı bu ifadələrdən görünür ki, bu insanlar azərbaycanlılar idi. Çarın "Bu nə səsdir?" sualına Rozen çarın gəlişi münasibətilə sevinc göstəricisi olduğunu bildirir. Bununla razılaşmayan çar məiyyətinə işin mahiyyətini aydınlaşdırmağı tapşırır. Nahardan sonra isə çar




özü kütləyə yaxınlaşır və çoxlu şikayət eşidir. Əyalət rəisi erməni V.O.Bebutov sui-istifadələrinə görə, vəzifəsindən uzaqlaşdırılır.

Bu nadir tarixi faktın önəmi ondan ibarətdir ki, hətta, Rusiya imperatoru qarşısında belə sadə azərbaycanlılar öz haqlarını qoruya bilmişdi. I Nikolay İrəvana səfərdən sonra yerindəcə əmin olur ki, "Erməni vilayəti" üsul-idarəsi özünü doğrultmamışdır və o dəyişdirilməlidir. Burada bir faktı da xatırlatmaq lazımdır. Berje çarın Üçkilsədə katolikos ilə görüşündən bəhs edərkən yazır ki, o, erməni dilindən başqa, Azərbaycan dilində də izah edə bilirmiş. Bu, Azərbaycan dilinin nüfuzunu, ermənilər arasında geniş yayıldığını və ümumi ünsiyyət vasitəsi olduğunu təsdiq edir.

**1840, 10 aprel.** Zaqafqaziyada keçirilən islahatlar üzrə "Erməni vilayəti"nin ləğv edilməsi. Yeni yaradılan Gürcü-İmeret quberniyası tərkibində mərkəzi İrəvan şəhəri olan İrəvan qəzasının (1840-1930) təşkili. "Erməni vilayəti"nin ləğvinin bir sıra səbəbləri var idi. Onlardan ikisi xüsusilə diqqəti cəlb edir: 1. Azərbaycanlıların rus-erməni hakimiyyətinə qarşı mübarizəsi (I Nikolayın 1837-ci il Qafqaz səfərinə bax) ; 2. Vilayətin tərkibinə qatılan Naxçıvanda Ehsan xanın artan nüfuzu və fəaliyyəti.

**(Ardı var)**

# Türkiyə–Macarıstan: xüsusi münasibətlər

## Ankara–Budapeşt tandemi Qərbdə qısqanclıq yaradır

**Ötən bazar günü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştdə səfərdə olub və bu ölkənin milli bayramı ilə bağlı təşkil olunmuş bir çox mühüm tədbirlərdə iştirak edib. Dünya mediası bu hadisəni geniş işıqlandıraraq, son illər iki ölkə arasında xüsusi münasibətlərin yarandığını qeyd edib.**



"The Deyli Newspaper" qəzeti yazır ki, Türkiyə və Macarıstan liderləri əvvəlcə bağlı qapılar arxasında görüşərək bir çox aktual ikitərəfli məsələləri, eləcə də regional və beynəlxalq problemləri müzakirə ediblər.

Xatırladaq ki, Türkiyə–Macarıstan stateji əməkdaşlığı barədə sənəd 2013-cü ildə imzalanıb və o dövrdən iki ölkə arasında hərtərəfli əməkdaşlıq güclənib. R.T.Ərdoğan özünün "Teleqram" səhifəsində qeyd edib ki, Türkiyə ilə Macarıstan arasında 2022-ci ildə ticarət dövriyyəsinin həcmi 3,5 milyard dollar təşkil edib. Tərəflər bu göstəricinin yaxın iki-üç il ərzində 6 milyard dollara çatdırmaq əzmindədir.

Türkiyə Prezidenti Budapeştdə Azərbaycan, Özbəkistan, Qırğızıstan, Bosniya-Herseqovina və Serbiya liderləri ilə də görüşlər keçirib. Serbiya Prezidenti Aleksandr Vuçiç bəyan edib ki, cənab Ərdoğanla Budapeştdə baş tutan görüş Serbiya–Türkiyə münasibətlərinin möhkəmlənməsi prosesində növbəti addımdır". Onun sözlərinə görə, Ərdoğanla ikitərəfli və regional aktual məsələlər ətrafında mühüm və açıq söhbət olub.

A.Vuçiç qeyd edib ki, ölkəsi üçün Ankara ilə mümkün olan ən yaxşı münasibətləri saxlamaq vacibdir və bu görüş qarşılıqlı maraq doğuran bütün sahələrdə onsuz da yaxşı olan Serbiya–Türkiyə əməkdaşlığının gücləndirilməsi istiqamətində növbəti addım idi.

Macarıstandan qayıdan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan təyyarədə jurnalistlərə müsahibəsində deyib ki, İsveçin NATO-ya üzvlük protokollarının Türkiyə Böyük Millət Məclisinə (TBMM) göndərilməsi və prosesin həlli bu ölkənin vədlərinə sadiq qalmasından asılıdır.

Onun sözlərinə görə, bu məsələyə Türkiyə parlamenti qərar verəcək: "Məsələnin parlamentimizdə nə qədər müzakirə olunacağını bilmirik. İsveç hər şeydən əvvəl Stokholm küçələrinə nəzarət etməlidir. Əgər bunu etməsələr, müqəddəs saydıqlarımıza hücum etsələr, onda inciməsinlər".

Türkiyə liderini Macarıstan səfəri zamanı qardaş ölkənin xarici işlər naziri Hakan Fidan, enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar, gənclər və idman naziri Osman Askın Bak, sənaye və texnologiyalar naziri Mehmet Fatih Kacır, ticarət naziri Ömər Bolat, Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun və baş müşavir Akif Cağatay Kılıc müşayiət edib.

Yeri gəlmişkən, dünən Türkiyədə Prezident R.T.Ərdoğanın rəhbərliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib. "Haber Global" telekanalı xəbər verib ki, toplantıda daxili məsələlər, inflyasiya və xarici siyasətin prioritetləri müzakirə olunub.

Bildirilib ki, iclasda regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Rusiya–Ukrayna müharibəsi və "Taxıl sazişi"nin bərpası məsələsi, eyni zamanda, Şimali Kiprlə BMT sülh missiyası arasındakı gərginlik də müzakirə edilib. Toplantıdan sonra Ərdoğan jurnalistlərə açıqlama verib.

Türkiyə Prezidenti Budapeşt səfəri haqqında da danışıb və orada aparılan müzakirələrin faydalı olduğuna əminliyini ifadə edib.

*Ceyran CƏFƏRLİ,*
*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Həmid VƏLİYEV,**
**BDU-nun "Beynəlxalq jurnalistika" kafedrasının professoru**

– Türkiyə–Macarıstan münasibətləri xüsusi münasibətlərdir. Yəni, dünyada xüsusi münasibətləri olan bir neçə dövlət var. Məsələn, Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının münasibətləri xüsusi münasibətlərdir. Belə ki, bu ölkələr təkcə strateji baxımdan deyil, həm də milli maraqlar, etnik baxımdan bir-birinə çox yaxın dövlətlərdir.

Fikir veribsinizsə, Amerikanın hər bir yeni prezidenti Böyük Britaniyaya münasibətdə iki dövlət arasında xüsusi münasibətlərin olduğunu vurğulamağa çalışır. İki qardaş ölkə–Türkiyə–Azərbaycan münasibətləri də belədir. Türkiyənin xoşbəxtlikdən təkcə Azərbaycanla deyil, Orta Asiyanın türk dövlətləri, eləcə də Macarıstanla xüsusi münasibətləri formalaşıb.

Qeyd etmək lazımdır ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Macarıstanın Baş naziri Viktor Orban arasında çox yaxın, şəxsi dostluq münasibətləri mövcuddur. Macarıstan Avropa İttifaqının və NATO-nun üzvüdür. Bununla bərabər, öz milli maraqlarına uyğun müstəqil siyasət xətti həyata keçirir.

Macarıstan Türkiyənin Aİ üzvlüyünə namizədliyini birmənalı şəkildə dəstəkləyir. NATO-nun genişlənməsi ilə bağlı məsələdə də Türkiyə–Macarıstan mövqeləri bir-birinə yaxınlığı ilə seçilir. V.Orban dəfələrlə deyib ki, Türkiyə nə vaxt İsveçin alyansa üzv qəbul edilməsinə "yaşıl işıq" yandırsa, biz də "hə" deyəcəyik.

Sirr deyil ki, bir sıra Avropa ölkələrinin liderləri Ankara–Budapeşt yaxınlığına qısqanclıqla yanaşır. Onlar bunun səbəbini bəzən başa düşmürlər. Səbəb isə odur ki, macarlar etnik cəhətdən türklərə çox yaxındırlar. Hunlar qədim türk qövmüdür. Bundan başqa, V.Orban böyük siyasətçi olaraq R.T.Ərdoğanın şəxsiyyətinə dərin ehtiram bəsləyir.

Ümid edirik ki, V.Orbanın Türkiyə Prezidentinə, bütövlükdə, türk dünyasına "isti" münasibəti Böyük Turançılıq ideyasının reallaşmasına, türk toplumları və xalqları sıx əlaqələrin genişlənməsinə də böyük fayda verir.

Yeri gəlmişkən, həm türk, həm də macar mətbuatı liderlərin Budapeştdə təşkil olunan görüşü, xüsusilə türkdilli dövlətlərin rəhbərlərinin Macarıstana səfərini geniş işıqlandırırlar.

Macarıstan mətbuatı dəfələrlə Türkiyənin daxili və xarici siyasətini dəstəkləyən analitik yazılar dərc edib. Macarlar zəmanəmizin ən görkəmli dövlət xadimlərindən olan R.T.Ərdoğanın şəxsiyyətinə böyük maraq göstərirlər.

# Rusiya kəşfiyyatı Avropada necə işləyir?

## *Bu ölkənin agentləri aşkar edilib qovulurlar*

**Son il yarımda bir çox rus diplomatı Avropa ölkələrindən qovulub. Bu yaxınlarda isə Böyük Britaniyada 3 Bolqarıstan vətəndaşı Rusiyaya casusluq ittihamı ilə həbs edilib.**

Bəzi analitiklərin fikrincə, bu hadisə Rusiya kəşfiyyatının Avropada yeni iş metodlarından istifadə edərək artan risklərə necə uyğunlaşmağa çalışdığının göstəricisidir. İlk baxışdan bu 3 nəfərin sosial şəbəkələrdəki profillərində diqqəti çəkən məlumatlar yoxdur: adi tərcümeyi-halları və normal həyatları var. Məsələn, Orlin Rusev rabitə və elektron siqnalların ələ keçirilməsi ilə bağlı biznesə sahibdir. O, karyerasının əvvəlində Bolqarıstanın Energetika Nazirliyinin müşaviri olub. Katrin İvanovanın profilində deyilir ki, o, özəl tibb şirkətində laborant, Bizer Dzambazov isə xəstəxanalardan birində sürücü işləyirmiş.

Bu şəxsi məlumatlar onların hansı casusluq əməli törədə biləcəyi barədə nə deyir? Öncə, Rusiya xüsusi xidmət agentlər müxtəlif sferalarda çalışır və ya işə düzəlməyə cəhd göstərirlər. Onların arasında Haaqa Beynəlxalq Cinayət Məhkəməsində işə düzəlməyə çalışan, Berlində Britaniya səfirliyində mühafizəçi işləyənlər var. Norveçdə isə Baş Kəşfiyyat İdarəsinin polkovniki özünü Tromso Universitetində braziliyalı magistr tələbəsi kimi təqdim edib. Maksim Lebrun deyib: "Bu aspekt təsadüfi insanların profilini çıxarmaq üçün son dərəcə vacibdir. Onlar özlərini tələbə kimi göstərə, təhlükəsizlik layihələrində iştirak edən müəllimlər və ya katiblərlə tanış ola bilərlər. Tanınmış universitet professorlarının işini müşahidə etdik. Onların yeni tələbənin Federal Təhlükəsizlik Xidməti və ya Baş Kəşfiyyat İdarəsi əməliyyatçısı olmasından xəbərləri yox idi. Belə bir casusluq



orqanlarının iş üsullarına nəzər salaq. Bunun üçün ölkənin casus şəbəkəsinin xüsusiyyətlərinə nəzər salaq. Avropada (həmçinin bütün dünyada) Rusiya casus şəbəkələri 4 əsas kateqoriyaya bölünür: xarici səfirliklərdə diplomat adı altında çalışanlar; verdiyi məlumat üçün pul alan məmur və ya siyasətçilər; zahirən normal həyat sürən (rus agentləri özlərini, adətən, başqa ölkədən olan adamlar kimi təqdim edirlər), ola bilsin ki, bizneslə məşğul olan, ailəli, bəzən onilliklər boyu öz sığınacaqlarını gizli saxlayanlar; "yatmış" casus yuvaları. Məsələn, Londonda bolqarlar ifşa edildi. Onların işi gözləmək və izləmək, casusluğun hədəfi ola biləcək insanlarla əlaqə qurmaq idi.

Xarici kəşfiyyat isə Baş Kəşfiyyat İdarəsinin rəhbərliyi ilə həyata keçirilir.

Rusiya səfirlikləri isə kadrsız qalıb. 2022-ci ilin fevralında ölkənin Ukraynaya təcavüzündən sonra onun Avropadakı diplomatik nümayəndəliklərinin yüzlərlə əməkdaşı persona non-qrata elan edilib. Bəzi analitiklərin fikrincə, bu, Kremlin yerlərdə agentlərə nəzarətini zəiflədib və ya onu kəşfiyyat məlumatları əldə etmək üçün öz əməliyyatlarından məhrum edib.

Helsinkidə 33 ölkədən ekspertləri birləşdirən, Aİ və NATO ilə sıx əməkdaşlıq edən Hibrid Təhdidlərlə Mübarizə üzrə Avropa Qabaqcıl Təcrübə Mərkəzinin direktor müavini Maksim Lebrun deyib: "Bir çox rus diplomatları, casusları Avropadan çıxarılıb. Beləliklə, indi onlar xaricdəki adi ruslara və ya başqa ölkələrdən, məsələn, Bolqarıstandan olan adamlara güvənir və onların köməyi ilə kəşfiyyat məlumatları toplamağa çalışırlar".

Rus agentləri hansı işlərlə məşğuldurlar? Son zamanlar Avropada rus agentlərinin cinayət başında yaxalanmalarına dair çoxlu nümunələr var. Moskvanın xeyrinə casusluq üçün cəlb edilən hadisəsini aşkar etmək çox çətindir. Bu yaxınlarda baş verən başqa bir hadisə isə özünü Neapoldakı zərgərlik mağazasının sahibi kimi təqdim edən rus casusu ilə bağlıdır. On ilə yaxındır ki, bu qadın NATO-nun yüksək rütbəli məmurları ilə dostluq edib və hətta onlardan biri ilə münasibətdə olub".

Rusiya üzrə ekspert Rıqor Nijnikov deyir: "Adi təcrübə belədir ki, yüksək rütbəli Britaniya və ya NATO məmurları işə başlayanda Moskva onları casusluğa cəlb etmək üçün müxtəlif yollar axtarır. Amma elə olur ki, bu insanlar təsadüfən informasiya mənbəyinə çevrilirlər. Əməliyyat illər çəkə bilər və şəxs özü də fərqinə varmadan Rusiya kəşfiyyatının "toruna" düşər". Nijnikov izah edir ki, "yatmış" agentlər adi insanlar, tanışlar, dostlar, ailə dostları ola bilər: "Və siz heç vaxt təxmin etməyəcəksiniz ki, burnunuzun önündə xarici kəşfiyyat əməliyyatı gedir".

Rusiya xüsusi xidmət orqanlarına ən çox kimlər cəlb olunur? Məxfi xidmət orqanlarının işindən xəbəri olan ekspertlər üçün Kremlin bolqarlardan agent kimi istifadəsində təəccüblü heç nə yoxdur. Maksim Lebrun deyir: "Bolqar britaniyalıdan daha çox Rusiya üçün casusluğa meyillidir".

Rıqor Nijnikovun izah etdiyi kimi, Rusiya Federal Təhlükəsizlik Xidməti və Baş Kəşfiyyat İdarəsi potensial agentləri, keçmiş kommunist blokunda olan ölkələrdə daha çox axtarırlar. "Ola bilsin ki, özləri və ya ailə üzvləri kommunizm və ya post-kommunizm dövründə işə götürülüblər. Bolqarıstan və Rumıniyada rusların böyük imkanları və uzunmüddətli əlaqələri var. Bu, həmin ölkələri Rusiya üçün nisbətən asan hədəfə çevirir".

***P. ƏFƏNDİ, "Xalq qəzeti"***

# BRİKS genişlənmək istəyir

## *Bu qurumun güc mərkəzi kimi perspektivi varmı?*

**Cənubi Afrika Respublikasının (CAR) Prezidenti Siril Ramafosa və Çin Xarici İşlər Nazirliyi BRİKS sammiti ərəfəsində birliyin genişlənməsinə dəstək verdiklərini açıqlayıblar. Yeni üzvlərin daxil olması məsələsi əvvəllər ittifaqın digər ölkələri tərəfindən də dəstəklənirdi. "Financial Times"ın məlumatına görə, Cənubi Afrikada keçirilən sammitdən sonra bir neçə ölkə BRİKS-ə qəbul oluna bilər. Bəs bu genişlənmə BRİKS-i yeni güc mərkəzinə çevirə bilərmi?**



Avqustda BRİKS sammitinə ev sahibliyi edən CAR Prezidenti Siril Ramafosa xalqa müraciəti zamanı onu genişləndirməyə çağırıb: "20-dən çox ölkə BRİKS-ə qoşulmaq üçün rəsmi müraciət edib və daha bir neçə ölkə BRİKS ailəsinin bir hissəsi olmaqda maraqlı olduğunu bildirib. Cənubi Afrika BRİKS üzvlüyünün genişləndirilməsini dəstəkləyir". S.Ramafosanın çıxışı dövlət başçısının saytında yerləşdirilib. CAR Prezidentinin sözlərinə görə, genişləndirilmiş BRİKS "daha tarazlaşdırılmış qlobal nizam üçün ümumi arzuları bölüşən fərqli siyasi sistemlərə malik müxtəlif ölkələr qrupuna" çevriləcək.

Çin Xalq Respublikasının (ÇXR) Xarici İşlər Nazirliyi "RİA Novosti"yə şərhində genişlənməni dəstəkləyib: "Çin həmişə əmin olub ki, BRİKS açıq və əhatəli mexanizmdir, Pekin BRİKS-in genişlənmə prosesini dəstəkləyir və daha çox həmfikir olan tərəfdaşların BRİKS-in böyük ailəsinə erkən daxil olmasını alqışlayır". Pekin, həmçinin vurğulayıb ki, Çin BRİKS əməkdaşlığının keyfiyyətcə inkişafına kömək etmək və bütün dünyada sülhün, sabitliyin və rifahın möhkəmlənməsinə daha böyük töhfə vermək üçün təşkilatdakı tərəfdaşları ilə işləməyə hazırdır. "Financial Times" yazır ki, Çin BRİKS alyansını G7-yə rəqib olmağa çağıra bilər. Qəzet müəyyən edib ki, BRİKS sammitində ölkələrin liderləri qrupun son on ildə ən böyük genişlənməsini müzakirə etməyi planlaşdırırlar. "Financial Times"ın Çin nümayəndə heyətindəki həmsöhbəti qeyd edib ki, uğurlu genişlənmə halında BKİRS-in dünya ÜDM-də payı G7-nin mövcud payına bərabər olacaq: "Belə olan halda, dünyadakı kollektiv səsimiz daha əhəmiyyətli olacaq".

Rusiya da təşkilatın genişlənməsində maraqlıdır. Avqustun əvvəlində Rusiyanın xarici işlər naziri Sergey Lavrov və Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov da BRİKS-ə yeni üzvlərin daxil edilməsinin lehinə danışmışdılar. S.Lavrov vurğulamışdı ki, genişlənmə BRİKS-i əhəmiyyətli dərəcədə gücləndirəcək və dünya işlərində çəkisini artıracaq. D.Peskov isə demişdi ki, genişlənmə təşkilatın gələcək inkişafına və güclənməsinə töhfə verəcək.

Braziliya da genişlənmə məsələsinə müsbət yanaşır. Prezident Luiz İnasio Lula da Silva avqustun əvvəlində ölkəsinin BRİKS-in genişləndirilməsini dəstəklədiyini bildirmişdi. Onun fikrincə, Argentina və Səudiyyə Ərəbistanı birliyə qoşula bilər. Hindistan da eyni mövqedən çıxış edir. Ölkənin Xarici İşlər Nazirliyinin sözçüsü Arindam Baqçi avqustun əvvəlində qeyd etmişdi ki, Hindistan məsələyə "açıq fikir və müsbət münasibətlə" yanaşır. Hindistannın "Business Standard" qəzeti öz mənbələrinə istinadən Yohannesburqda Səudiyyə Ərəbistanından başqa daha dörd ölkənin BRİKS sıralarına qəbulundan sonra "beşliy"in "onluğa" çevriləcəyini proqnozlaşdırır. Bunlar Argentina, Misir, İndoneziya və Birləşmiş Ərəb Əmirlikləridir. Yeni üzvlərin Qlobal Cənubun müxtəlif qitələrini təmsil etmələri diqqətəlayiqdir.

Cənubi Afrika rəsmiləri 23 ölkənin BRİKS-ə qoşulmaq üçün rəsmi müraciət etdiyini bildirirlər. "Financial Times"ın mənbəsi hesab edir ki, onların hamısının dərhal təşkilata dəvət ehtimalı azdır. Üzvlüyə qəbul üçün meyarların müəyyənləşəcəyi gözlənilir. Xatırladaq ki, BRİKS sammiti avqustun 22-dən 24-dək Yohannesburqda keçiriləcək. Tədbirdə üzv ölkələrin liderləri ilə yanaşı, 30-dan çox ölkənin nümayəndələri qatılacaqlar.

Bəs BRİKS genişlənəcəyi təqdirdə yeni güc mərkəzinə çevrilə bilərmi? Ekspertlərin fikrincə, bununla bağlı dəqiq proqnoz vermək çətindir və birliyin gələcəyi iştirakçı olan ölkələrdəki müxtəlif siyasi və iqtisadi amillərdən əhəmiyyətli dərəcədə asılıdır. Hazırda təşkilatda birləşən ölkələrin qarşısında tam başqa problemlərin həlli missiyası dayanır. Məsələn, Rusiya Ukraynadakı hərbi münaqişəyə gorə ciddi sanksiyalar altındadır, Çin Tayvan probleminə görə Qərb ölkəri ilə ciddi qarşıdurmanın astanasındadır. Hindistan da Qərbə üz döndərmək gücünə malik deyil. Braziliya barədə də eyni sözləri demək olar. Təşkilata qoşulacaq ölkələrin də BRİKS-i qlobal güc mərkəzinə çevrilməsində oynacağı rol böyük olmayacaq.

Əlbəttə, BRİKS dünyadakı proseslərə müəyyən təsir gücünə malik dövlətləri birləşdirir, təşkilata qoşulacaq ölkələr qurumun geosiyasi və geoiqtsadi çəkisini artıracaq. Lakin G7 səviyyəsinə çatması üçün BRİKS ölkələrində siyasi və iqtisadi inkişaf vektorları və fəlsəfəsi üst-üstə düşməlidir. Hazırda sadaladığımız bu iki mühüm amil məsələsində birlikdə ortaq mövqe müşahidə olunmur. Qərblə ciddi qarşıdurmanın yaranacağı halında təşkilat sıralarında yer alacaq yeni üzvlərin BRİKS-in aparıcı ölkələrinin yanında dayanacaqları şübhə doğurur.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

# “AzerGold” QSC-nin ali məktəb tələbələri üçün növbəti “Təqaüd proqramı” müsabiqəsi




**“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) ölkəmizin ali təhsil müəssisələrinin tələbələri üçün üçüncü “Təqaüd proqramı” müsabiqəsi keçirir.**

Səhmdar Cəmiyyətdən qəzetimizə bildirilib ki, strateji layihələrin vaxtında lazımi kadrlarla təminatı məqsədilə təsis edilən müsabiqədə 2023–2024-cü tədris ili üzrə bakalavr və magistr səviyyəsinin sonuncu kursunda əyani təhsil alan, Azərbaycan vətəndaşı olan tələbələr iştirak edə bilərlər. Ötən illərdən fərqli olaraq bu il müsabiqədə dağ-mədən, geologiya və metallurgiya sahələri ilə yanaşı, ekologiya, kimya, elektrik və energetika mühəndisliyi, iqtisadiyyat, inzibati idarəetmə, kommersiya, menecment və filologiya sahələri üzrə təhsil alan tələbələrin də iştirakı nəzərdə tutulub.

Müsabiqə iki test imtahanı və müsahibə mərhələsindən ibarətdir. Təqaüd komissiyasının aparacağı qiymətləndirmə zamanı test imtahanında ən çox bal toplayan 20 namizəd müsahibəyə buraxılacaq. Növbəti mərhələdə hər bir namizədin hazırlığı müvafiq qiymətləndirmə meyarlarına uyğun olaraq müəyyən ediləcək. Yekunda müsabiqəni uğurla keçən 10 nəfər tələbə təqaüd proqramına cəlb edilərək onların hər biri müvafiq təltifnamə və 9 ay müddətində hər ay 200 manat məbləğində təqaüd əldə edəcək. Proqramda iştirak edən tələbələrin səhmdar cəmiyyətdə təcrübə proqramlarında iştirakı və məzun olduqdan sonra müvafiq vəzifələr üzrə işlə təmin edilməsi nəzərdə tutulur.

Təqaüd proqramı layihəsinin və müsabiqənin şərtlərilə ətraflı tanış olmaq üçün “AzerGold” QSC-nin rəsmi veb-saytında (azergold.az) “Karyera” bölməsində yaradılmış “Təqaüd proqramı” altbölməsinə daxil olmaq lazımdır. Müsabiqədə iştirak etmək üçün qeyd olunan altbölmədəki müraciət formasını doldurmaq tələb olunur. Müsabiqəyə qeydiyyat 2023-cü il avqustun 21-dən başlanılır. Müraciət üçün son tarix 21 sentyabr 2023-cü ildir.

Xatırladaq ki, “AzerGold” QSC tərəfindən elan edilən “Təqaüd proqramı” müsabiqələrində müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinin bakalavr və magistr səviyyələrində təhsil alan 18, peşə təhsili müəssisələrində isə təhsil alan 27 tələbəyə təqaüd verilib. Proqram çərçivəsində 2 nəfər ali təhsil müəssisələrində, 4 nəfər peşə təhsili müəssisəsində təhsil alan tələbə “AzerGold” QSC-də işə qəbul olunub.

# Mən tək... “Kontrabas”da...

## “Birlik məkanı”ndan “Qızıl qapılar”a

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı avqustun 14-dən 20-dək Rusiyanın Vladimir şəhərində keçirilən III “Teatr. Birlik məkanı” beynəlxalq festivalında iştirak edib.**

Teatrın mətbuat xidmətindən bildirilib ki, festivalın 3-cü günündə Əməkdar artist, “Qızıl Dərviş” və “Zirvə” mükafatları laureatı Şövqi Hüseynovun ifasında “Kontrabas” monotamaşası nümayiş olunub. Alman yazıçısı Patrik Züskindin eyniadlı pyesi əsasında hazırlanmış tamaşaya mərhum rejissor, Xalq artisti İrina Perlova quruluş verib.

...Ensiklopedik bilikli qəhrəman həyatda çox sadə mövqe sahibidir. Opera ulduzuna vurulan bu şəxs həmin xanıma etiraf etmək istəyir ki, sakit otaqlarda belə onun səsini eşidir, məşhur ariyaları ifa edən gözəl səsi ilə dialoqa girir. Bu zaman özü üçün qısqanclıq səhnəsi, teatr qalmaqalı yaradır ki, bəlkə bunun nəticəsində məşhur ulduzla ünsiyyət qurmaq imkanı yarana. Sarkazm və yumoristik məqamlarla zəngin tamaşada qəhrəmanın yeganə ünsiyyət vasitəsi kontrabasdır. Bu süjet üzərində qurulmuş səhnə əsəri indiyədək İran, Türkiyə, Moldova, Rusiya, Ukrayna və digər ölkələrdə keçirilən beynəlxalq teatr festivallarında bir sıra mükafatlara layiq görülüb.

Şövqi Hüseynov özü isə bildirdi ki, musiqiçi obrazını üstün performansla ifa etdiyi monotamaşa bu dəfə də uğurla keçib. Ekspert şurası tərəfindən ona diplom və Vladimir şəhərində teatr fədailərinə qoyulmuş heykəlin miniatür forması təqdim edilib. “Kontrabas” isə gələn il elə bu şəhərdə keçiriləcək daha böyük teatr bayramına – “Qızıl qapılar” beynəlxalq festivalına vəsiqə qazanıb.

“Xalq qəzeti”nə qısa açıqlamasında Əməkdar artist Şövqi Hüseynov onu da dedi ki, oktyabr ayında Almaniyanın Hannover şəhərində keçiriləcək monotamaşalar festivalında da iştirak edəcək.

Uğurlar diləyirik!

*Əli NƏCƏFXANLI,*
*“Xalq qəzeti”*



# Dünya çempionatının iştirakçıları: “Azərbaycan əsl nümunədir”



**Bakı Atıcılıq Mərkəzində 100-dən çox ölkədən 1300-ə yaxın idmançının iştirak etdiyi mötəbər yarış – atıcılıq üzrə dünya çempionatı davam edir.**

Dünən yarışda Ukrayna komandası ikinci gümüş medalını qazanıb. Dairəvi stend atıcılığı üzrə qarışıq komanda növündə ukraynalı İrina Maloviçko və Mikola Milçev qızıl medalı ABŞ-ın Vinsent Hankok və Cuel Ostin Smit cütlüyünə 1 xalla uduzaraq əldən verib. Böyük Britaniya komandasının üzvləri Ben Levelin və Co Amber Ratter cütlüyü isə bürünc medala sahib olub.

Olimpiya növü olan 50 metr məsafəyə 3 mövqedən atəş üzrə qadınlar arasında mübarizədə Çin idmançıları Qiongyu Janq və Ciayu Han müvafiq olaraq qızıl və gümüş medala sahib olublar. Yarışın bürünc medalı isə ABŞ atleti Saden Madalenaya çatıb.

Qiongyu Janq öz ölkəsinə “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya qazandırıb. Digər lisenziyaları Almaniya, Hindistan və Monqolustan atletləri əldə edib.

Dünyanın ən dəqiq nişançıları Bakıda bu mötəbər yarışın medalları ilə yanaşı, Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün də ciddi səy göstərirlər. Onlar müsahibələrində Bakı Atıcılıq Mərkəzində idmançıların öz potensiallarından maksimum istifadə etmələri üçün hər bir şəraitin yaradıldığını bildirirlər.

**Beynəlxalq Atıcılıq İdmanı Federasiyasının (ISSF) stend atıcılığı üzrə texniki nümayəndəsi Abdullah Əli Əl Motava Əl-Hammadi təşkilatçılıqla bağlı yüksək fikirlər səsləndirib:** “Azərbaycan beynəlxalq yarışlara hər zaman möhtəşəm ev sahibliyi ilə diqqət çəkib. Bura mənim üçün çox doğmadır. Azərbaycana İslam Həmrəyliyi Oyunlarında, həmçinin, ötən il dünya kubokunda gəlmişdim. Azərbaycan hər zaman möhtəşəm evsahibliyi ilə diqqət çəkib. Bu dəfə də həmçinin. Açılış mərasimindəki gözəlliyi hər kəs gördü. Atıcıların rahat hazırlaşması və atəş açmaları üçün hər cür şərait yaradılıb. Mükafatlandırma mərasimi də qonaqların ürəyincə təşkil olunur. 100-dən çox ölkədən 1200-dən çox atıcı cəlb edilib ki, bu da dünya çempionatının möhtəşəmliyindən xəbər verir”.

Əl-Hammadi onu da deyib ki, dünya çempionatı yerli atıcılar üçün yaxşı təcrübədir.

**Yunanıstanlı atıcı Eftimos Mitas Bakıda dünya çempionatında ilk dəfə qızıl medal qazandığına görə hədsiz sevindiyini bildirib. Üçqat dünya çempionuna finalda qalib gələn idmançı həlledici mərhələnin çətin keçdiyini deyib:** “Finalda dəqiq olmaq üçün yarışa kökləndim və yalnız qələbəni düşündüm. Ciddi səylərim bəhrəsini verdi və qızıl medal qazandım. Eyni zamanda, Paris Yay Olimpiya Oyunlarına da lisenziya da əldə etdim ki, bu da çox vacib idi”.

Turnirdə təşkilatçılığı yüksək qiymətləndirən atıcı ilk dəfə 2015-ci ildə Avropa Oyunları zamanı Bakıda olduğunu söyləyib.

“Bakı həmin vaxtdan mənim üçün doğmadır. Şəhəri çox sevirəm. Burada çoxlu dostlarım var. Özümü paytaxtınızda çox rahat hiss edirəm. Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərovla da yaxşı münasibətlərim var. Burada heç bir problemlə üzləşməmişik. Hər şey çox yaxşıdır”, – deyə o, əlavə edib.

**ABŞ komandasının təcrübəli idmançısı, dünya çempionatının qızıl medalını qazanan Vinsent Hankok isə qeyd edib ki, bundan əvvəl Bakıda keçirilmiş dünya kubokunda da qalibiyyət əldə edib:** “Bakı möhtəşəmdir. Atıcılıq Mərkəzi də çox gözəldir. Uzun illərdir ki, yarışlara qatılıram. Bura gəldikdə özümü öz evimdəki kimi hiss edirəm. Mərkəzinizdə çıxışdan çox xoşum gəlir. Maraqlıdır ki, Bakı mənim üçün hər dəfə düşərli olur”.

O, ilk atışlar zamanı səhvlərindən danışıb: “Final görüşünün əvvəlində bir-iki atış zamanı hədəfdən yayındım. Buna görə narahat olmadım. Komanda yoldaşım məni kompensasiya etdi”.

**Çempionatın dairəvi stend atıcılığının qarışıq komanda növündə gümüş medal qazanmış Mikola Milçev müsahibəsində ölkəmizdə bir neçə dəfə yarışda iştirak etdiyini və hər dəfə Azərbaycana böyük məmnuniyyətlə gəldiyini bildirib.** O, deyib ki, indiyə qədər bir çox dünya çempionatlarında iştirak etsə də, heç yerdə bu cür təşkilatçılıq görməyib: “Azərbaycan əksər ölkələr üçün əsl nümunədir. Bakıda hər şey fenomenal təşkil olunub. Təşkilatçılara xüsusi minnətdarlığımı bildirirəm”.

**Onun komanda yoldaşı İrina Maloviçka tribunadan idmançılara möhtəşəm dəstək verildiyini vurğulayıb:** “Atışa başlayanda tribunalardan bu cür dəstək görəcəyimizi gözləmirdim. Yarışın gedişində azarkeşlərin səsini eşitməyə başladıq. Bu cür dəstək bizə əlavə motivasiya və özünəəminlik verdi”.

Yarış sentyabrın 1-dək davam edəcək.

*L.QURBANOVA,*
*“Xalq qəzeti”*

## Unutsaq – unudularıq

**Ötən əsrin 70–80-ci illərində AMEA-ya rəhbərlik edən tanınmış fizik və elm təşkilatçısı, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi Həsən Abdullayevin anadan olmasının 105-ci ildönümü ilə əlaqədar Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun bir qrup alimi onun məzarını ziyarət edib.**



Mərasimdə AMEA-nın birinci vitse-prezidenti, Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov görkəmli alimin elmi fəaliyyəti və onun zəngin irsindən söhbət açaraq, akademik H.Abdullayevin təkcə fizika elminin deyil, bütövlükdə, Azərbaycan elminin inkişafında böyük xidmətlərini yada salıb. Fizika üzrə fəlsəfə doktorları Kamil Qurbanov və Almaz Xəlilova akademik Həsən Abdullayevlə bağlı xatirələrini bölüşüblər.

# Görkəmli akademik ehtiramla yad edilir



Bildirilib ki, 1918-ci il avqustun 20-də Culfa rayonunun Yaycı kəndində anadan olmuş, əsrin ortalarından sonra isə dünya elektronikası və yeni texnologiyaların patriarxlarından biri kimi dəyərləndirilən akademik Həsən Abdullayev daim böyük elmi töhfələri ilə seçilib.

O, Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin məzunu olub. Çox tezliklə gənc Həsən sonralar Nobel mükafatına layiq görüləcək ilk bakılı alim – akademik Lev Landaunun diqqətini cəlb edib. Namizədlik dissertasiyasının uğurlu müdafiəsindən sonra, 1948-ci ildə SSRİ Elmlər Akademiyasının Fizika-Riyaziyyat Bölməsindən Fiziklərin Ümumittifaq Yığıncağına fərdi dəvət alıb. Daha 6 il sonra o, elmlər doktoru olub, professor adını alıb. 1970-ci ildə isə SSRİ EA-nın müxbir üzvü seçilib.

Həsən Abdullayev pillə-pillə ucaldığı Azərbaycan Elmlər Akademiyası (AEA) Fizika İnstitutunda düz 36 il – 1957-ci ildən ömrünün sonunadək direktor vəzifəsində çalışıb. 1968–1970-ci illərdə AEA-da FRTE Bölməsinin akademik-katibi, sonra AEA Prezidenti (1970–1983) olub.

Akademik H.Abdullayev Azərbaycanda müasir fizikanın, xüsusilə, yarımkeçiricilər fizikası və texnikasının əsasını qoyub, bu sahəni hərtərəfli inkişaf etdirib, yüksək səviyyəli fiziklər məktəbi yaradıb. O, bir qismi xaricdə dərc olunan 13 monoqrafiyanın, 500-dən artıq elmi məqalənin, 40-dan çox ixtiranın (o cümlədən ABŞ və Fransa Patentinin) müəllifidir. Akademikin rəhbərliyi altında 100-dən artıq fəlsəfə doktoru və 20 elmlər doktoru yetişdirilib. Elmlər Akademiyasına rəhbərliyi dövründə respublikada yaratdığı elmi baza əsasında 1545 namizəd və 180 elmlər doktoru hazırlanıb, dünyanın 34 ölkəsində 200 ixtira qeydiyyata alınıb.

AEA Fizika İnstitutunda bir sıra vacib bölmələrin, Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) yarımkeçiricilər fizikası kafedrasının yaradılması məhz onun adı ilə bağlıdır. Ayrıca institutlar da yaradıb: mikrobiologiya, kibernetika, geofizika, mikroelektronika, biofizika institutları, Şamaxı Rəsədxanası və Astrofizika şöbəsi bu sıradandır. Görkəmli alim SSRİ EA Rəyasət Heyəti yanında “Yarımkeçiricilər fizikası və kimyası” Elmi şurasının üzvü, respublika “Fizika Problemləri” Elmi Şurasının və “Bilik” Cəmiyyəti İdarə Heyətinin sədri, elm və texnika sahəsində Azərbaycan Respublikası Dövlət mükafatları Komitəsinin sədri olub. Bir neçə çağırış SSRİ Ali Sovetinin deputatı seçilib. Akademik H.Abdullayev “Qırmızı Əmək Bayrağı” və “Lenin” ordenləri, “Rəşadətli əməyə görə” medalı, SSRİ EA-nın S.İ.Vavilov adına qızıl medallı, Leypsiq yarmarkasının (ADR) böyük qızıl medalı və s. ilə təltif edilib.

Keçmiş SSRİ-nin ən ünlü akademiklərdən biri, Kurçatov adına Atom Enerjisi İnstitutunun fəxri prezidenti Yevgeni Velixov onun haqqında deyib: “Abdullayev tərəfindən 1945-ci ildə başlanmış yarımkeçiricilər və yarımkeçirici çeviricilər üzrə araşdırmalar inkişaf etdirildi və müasir kompüterlərin, mobil rabitə və internetin, ilk lazer disklərinin, simsiz texnikaların və s.-nin yaradılmasının əsasını təşkil etdi... 1957-ci ildə o, yeni texnologiyaların inkişafı və Azərbaycan akademik elminin flaqmanı olan ilk tədqiqat və istehsal mərkəzinə çevrilən Elmlər Akademiyasının hazırkı Fizika İnstitutu Azərbaycanda "Silikon Vadisi" modelini yaratdı”.

Bu fikir isə Qeyri-səlis məntiq nəzəriyyəsinin müəllifi, professor Lütfi Zadəyə məxsusdur: “Akademik H.M. Abdullaev dünya fizika elminin əsas simalarından biridir”.

5 il əvvəl Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkənin elmi potensialının artırılması və nailiyyətlərinin tanıdılmasında, o cümlədən yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri olan görkəmli akademikin 100 illik yubileyi ölkəmizdə geniş qeyd edilib.

Bəli, akademik Həsən Abdullayev hər zaman qədirbilənliklə yad edilir.

Özündən sonra müasir elektron vasitələrə çevrilən fikirlər, müasir elm ulduzlarına çevrilmiş yetirmələrdən ibarət bir məktəb qoyub gedən dərin zəka sahibinin xatirəsi daim yaşayır.

***Hazırladı:***
***Əli ƏLİYEV, “Xalq qəzeti”***

## “Maştağa – Aqrotexservis” ASC səhmdarlarının nəzərinə!

25 sentyabr 2023-cü il saat 14.00-da “Maştağa-Aqrotexservis” ASC-nin inzibati binasında səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** “Maştağa-Aqrotexservis” ASC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

**2.** “Maştağa-Aqrotexservis” ASC-nin nizamnaməsinin yeni redaksiyada qəbul olunub təsdiq edilməsi.

Səhmdarlar gündəlikdəki məsələyə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonları – (012) 455- 35 -55, (050) 324- 30- 07.

Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.

## “Bakı Tikinti Konstruksiyaları” QSC səhmdarlarının nəzərinə!

6 oktyabr 2023-cü il saat 10.00-da “Bakı Tikinti Konstruksiyaları” QSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2021-2022-ci illərin maliyyə hesabatlarının və balansının təsdiq edilməsi.

**2.** Cəmiyyətin təşkilati - hüquqi formasının dəyişdirilərək ASC-yə çevrilməsi.

**3.** Cəmiyyətin yeni redaksiyada nizamnaməsinin qəbul edilməsi.

**4.** Müşahidə şurasının, icra orqanının və maliyyə- təftiş müfəttişinin seçilməsi.

**5.** Qanuni təmsilçiliyə müvafiq səlahiyyətlərin verilməsi.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 050-247-50-12.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül zonası 507-ci küçə, 2096-cı məhəllə.

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 178 (30294) 22 avqust 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Gimnastlarımızın uğurlu çıxışı



**Misirin Qahirə şəhərində keçirilən "Pharaoh's Cup" beynəlxalq turnirində Azərbaycan yığma komandası uğurla çıxış edib.**

Komandamıza ən yüksək nəticəni qadın gimnastımız Xədicə Abbaszadə qazandırıb. Yeniyetmələr arasında (2010-cu il) çıxış edən təmsilçimiz dayaqlı tullanma və sərbəst hərəkətlərin icrasında qızıl medala layiq görülüb.

2011-2012-ci il təvəllüdlü yeniyetmələr arasında Leyla Məmmədzadə dayaqlı tullanma, Aynaz Məcidzadə isə sərbəst hərəkətlərdə fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Bu yaş kateqoriyasında çıxış edən digər gimnastımız Albina Alieva sərbəst hərəkətlərdə gümüş, dayaqlı tullanmada bürünc medala sahib çıxıb.

Kişilərdən ibarət Azərbaycan yığma komandasının üzvləri Mənsum Səfərov turnik, Rəsul Əhmədzadə sərbəst hərəkətlər, Aydın Əlizadə isə dayaqlı tullanmada bürünc medallar əldə ediblər.

## Dünya çempionatında 2 mükafat



**Azərbaycan millisi 20 yaşadək yunan-Roma güləşçiləri arasında İordaniyanın paytaxtı Ammanda keçirilən dünya çempionatında 1 gümüş, 1 bürünc medal qazanıb.**

Təmsilçimiz Fərid Sadıxlı (55 kq) ikinci, İlkin Qurbanov (60 kq) isə üçüncü yeri tutub. Yekunda 43 xal toplayan yığmamız komanda hesabında 9-cu nəticə göstərib. Dünya çempionu adına 162 xalla İran sahib çıxıb.

## Zaqreb tatamisində gümüş və bürünc medal

**Azərbaycan cüdoçuları Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Qran-prini 2 medalla başa vurublar.**



Komandamızın üzvü Əhməd Yusifov (60 kq) gümüş mükafata yiyələnib. Digər cüdoçumuz Uşanqi Kokauri (+100 kq) bürünc medala sahib çıxıb.

*Leyla SABİRQIZI,*
*"Xalq qəzeti"*

Texnologiya yenilikləri



## Kainatın ən qədim qalaktikası aşkar edilib

**"Ceyms Uebb" teleskopu kainatın ən qədim qalaktikası olan Meysini qeydə alıb.**

Bu qalaktikanın ortaya çıxması böyük partlayışdan 390 milyon il sonra baş verib və bu, spektroskopik analizlə təsdiqlənib. Sözügedən qalaktika Ostindəki Texas Universiteti astronomu Stiven Finkelşteyn tərəfindən kəşf edilib və onun qızının adını daşıyır.

Astronom qeyd edib ki, Meysi qalaktikası həm də ona görə maraqlıdır ki, o, "Ceyms Uebb" teleskopu tərəfindən müəyyən edilən ilk uzaq qalaktikalardan biridir. Alimlər bu qənaətdədirlər ki. Meysi kimi böyük qalaktikanın yaranmasının necə baş verdiyini izah etmək son dərəcə çətindir.

*"Xalq qəzeti"*

## 2 milyon dollarlıq "Ferrari"

**"Ferrari" şirkəti köhnə avtomobilini hərracda, təxminən, 2 milyon dollara satıb.**



Fotoda gördüyünüz bu avtomobil 1954-cü ildə buraxılmış "Ferrari 500 Mondial Spider"dir. O zaman bu model Amerikaya gətirildikdən sonra mühərriki V8 ilə əvəz edilib və bir çox yarışlara qatılıb. Hətta keçmiş "Scuderia Ferrari" sürücüsü Franco Cortese də bu avtomobildən istifadə edib. Sonradan baş verən avtomobil qəzası nəticəsində maşın yanaraq yararsız vəziyyətə düşüb.

Xatırladaq ki, "Ferrari" ilk avtomobilini 1946-cı ildə istehsal etməyə başlayıb. Bu, "Ferrari 125" modeli idi. Əvvəllər "Ferrari" yalnız yarış avtomobilləri istehsal edirdi. Sonradan isə o, satış üçün də idman avtomobilləri istehsal etməyə başlayıb.

*F. HÜQUQQIZI,*
*"Xalq qəzeti"*

Maraq dünyamız

# İctimai nəqliyyat növləri:
## At arabasından kanat yolunadək

**Böyük şəhərlərdə insanların gediş-gəlişini asanlaşdıran və həyatı daha davamlı hala gətirən ictimai nəqliyyat vasitələri müasir dünyanın ayrılmaz hissəsinə çevrilib. Tarixi uzaq keçmişə gedən nəqliyyat növləri inkişaf prosesində əhəmiyyətli dəyişikliklərə məruz qalıb.**

Qədim zamanlarda əhali başqa yerə getmək üçün at və arabalardan istifadə edirdilər. Zaman keçdikcə, insanlar qatar və tramvay kimi dəmir yolu nəqliyyatı ilə daha sürətli və səmərəli səyahət etmək imkanı qazandılar. Sonra avtobuslar, metro xətləri və yüngül relsli sistemlər inkişaf etdirildi və sərnişin nəqliyyatı şəbəkəsi genişləndirildi.





### Avtobus

Avtobus şəhərdaxili və şəhərlərarası nəqliyyatda ən çox istifadə olunan ictimai nəqliyyat vasitələrindən biridir. Ayrı-ayrı xətlərdə müəyyən edilmiş dayanacaqlardan keçərək sərnişinləri daşıyır. Avtobuslar 300-ə qədər sərnişin tutumuna malik ola bilər. Orta avtobus, adətən, 30-100 sərnişin daşıyır. Ən çox yayılmış növləri ikimərtəbəli artikulyar avtobuslar, mamavibuslar, daha kiçik yüklər daşıyan mikroavtobuslar və birmərtəbəli avtobuslardır. 1820-ci ildən atlı avtobuslardan, 1830-cu illərdən buxar avtobuslarından və 1882-ci ildən elektrik trolleybuslarından istifadə edilib. 1895-ci ildən isə ilk motorlu avtobuslar xəttə buraxılıb.

Son zamanlar hibrid elektrik avtobuslarına, yanacaq elementli avtobuslara və elektrobuslara, həmçinin sıxılmış təbii qaz və ya biodizellə işləyən avtobuslara maraq artmaqdadır. Bu avtobusların istehsalı 2010-cu ildən etibarən qloballaşmağa başladı və bütün dünyada yayıldı.

### Metro

Metro, adətən, şəhər yerlərində yaradılan yüksək tutumlu ictimai nəqliyyat növüdür. Avtobuslardan və ya tramvaylardan fərqli olaraq, metro sistemləri xüsusi keçid prinsipi ilə işləyir, piyadaların və ya digər nəqliyyat vasitələrinin keçə bilməyən, yer səviyyəsindən yuxarıda və ya tunellərdə yerləşən dəmir yollarından ibarətdir. İlk metro xətti Londonda istifadəyə verilib və 1933-cü ildə ictimai nəqliyyatın bir hissəsi kimi istifadə edilməyə başlanıb.

### Qatar

Qatar şəhərlərarası və qitələrarası səyahətlərdə geniş istifadə olunan ictimai nəqliyyat vasitəsidir. Qatarlar rels sistemində müəyyən xətlər üzrə hərəkət edir və adətən, daha uzun məsafələri qət edir. Qatardan ilk dəfə 1800-cü illərin əvvəllərində İngiltərədə istifadə edilib. Qatar Böyük Britaniyanın Pennidarran şəhərində Riçard Trevitik adlı mühəndislə mədən sahibi arasında mübahisə nəticəsində yaranıb.

### Kanat yolu

Kanat yolu, dağlıq bölgələrdə və ya şəhərdə yüksək nöqtələrə nəqliyyatı təmin edən asma hava xəttidir. Havada uzanan bir və ya bir neçə polad burazla birləşdirilən, asma nəqliyyat sistemidir. Dünyanın ən uzun kanat yolu olan Norsjö Kabel avtomobili İsveçin Norsjö şəhərindəki Örtrask və Menstrask qəsəbələri arasından keçir. 1942-ci ildə qurulan bu xəttin uzunluğu 13,2 kilometrdir (8,2 mil). Səyahət vaxtı 1,5 saatdır.



*Fidan SALMANOVA, "Xalq qəzeti"*

## İnsana donuz böyrəyi köçürülüb

**Alabama Universitetinin mütəxəssisləri dünyada ilk dəfə insana funksional donuz böyrəklərini transplantasiya ediblər.**

Belə ki, uzun müddət xroniki böyrək xəstəliyindən əziyyət çəkən 50 yaşlı xəstə öz bədənini elmi araşdırmalar məqsədilə istifadə olunmasına razılıq verib. Nəticədə, xəstədə beyin ölümü təyin edilən-dən sonra mütəxəssislər genləri təhlil edilmiş donuz böyrəklərinin transplantasiyasını həyata keçiriblər. Əməliyyat uğurla nəticələnib.



Mütəxəssislər sözügedən əməliyyatdan əvvəl böyrəklərdən 4 donuz genini çıxararaq onlara 6 insan geni əlavə ediblər. Bunun nəticəsində pasientin böyrəkləri kreatindən təmizlənib. Donuz böyrəkləri orqanizmdə 1 həftə ərzində normal şəkildə işləyib. Universitetin professorları böyrək xəstəliklərindən əziyyət çəkənlər üçün bu cür donor orqanların müddətli və ya müddətsiz olub-olmadığını təyin etmək istəyirlər.

Hazırda bu, ksenotransplantasiya sahəsindəki növbəti uğur hesab edilə bilər.

*Səadət RZAYEVA,*
*"Xalq qəzeti"*

## Urmiya gölünün quruması ilə bağlı cinayət işi başladılıb

**İranın Qərbi Azərbaycan əyalətindəki dünyanın ən böyük duzlu hövzələrindən biri olan Urmiya gölünün quruması ilə bağlı cinayət işi başladılıb. Bu barədə Qərbi Azərbaycan əyalətinin prokuroru Nəsir Atbati İRNA-ya açıqlama verib.**



O, Urmiya gölünün qurumasında əsas amil kimi, Urmiya ilə Təbriz şəhərlərini bir-birinə bağlayan keçid yolunun və suvarma sistemlərinin istifadəsinin doğru formada aparılmadığını bildirib.

Hüquq-mühafizə orqanları gölün quruması ilə bağlı cinayət işini araşdırmağa başlayıblar.

*"Xalq qəzeti"*

Proqnoz

## Hava yağmursuz keçəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 22-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, gündüz havanın arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37°, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacaq.

*Q. QASIMOV,*
*"Xalq qəzeti"*

## Britaniya monarxlarının ad günü

**Əslində, Kraliça II Yelizavetanın doğum günü aprelin 21-i olsa da, ümumiyyətlə, monarxların doğum gününü yay mövsümündə qeyd etmək adət halı almışdır. 1805-ci ildən etibarən hər il iyun ayının ikinci şənbə günü monarxın "rəsmi" doğum günü kimi ordu paradı ilə qeyd edilir.**

Bu mərasim əsgərlərin öz alaylarının müxtəlif rəngli bayraqları altında döyüş meydanına atılması ilə əlaqələndirilir. Hər 5 piyada qvardiya alayından biri növbə ilə (Qrenadyorlar, Koldstrim qvardiyası, Şotlandiya, İrland və Uels qvardiyaları) mərasimdə öz rənglərini nümayiş etdirir.

Kraliça II Yelizavetanın rəsmi ad günündə mərasim kral süvarilərinin onu Bukinqem sarayından paradın keçiriləcəyi yerə qədər müşayiət etməsi ilə başlayırdı. Kraliça paradın keçirildiyi yerə gələrək 500 qvardiyaçını nəzərdən keçirirdi.

Parad zamanı qvardiyaçılar rütbələrinə uyğun nizami sıra ilə ayaq səslərinin ritmik sədaları altında Kraliçanın yanından ötüb keçirdilər.

Dövlət bayrağının rəsmi idarələr üzərində dalğalandırılmasından və milli himnin səsləndirilməsindən əlavə, Kraliçanın həqiqi doğum günündə heç bir xüsusi tədbir keçirilmirdi.

Qeyd edək ki, bu adət bu gün də qüvvədədir. Kral III Çarlzın da ad günü bu qayda ilə qeyd edilir.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi qələm dostları Tamxil Hacıyevə anası

**GÜLLƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gəncə Körpü Tikinti-2" Açıq Səhmdar Cəmiyyəti direktorlar şurasının sədri Aqibət Məmmədov Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova anası

**GÜLBİKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4859
SİFARİŞ 2120
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00